

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Sayı: 3 (24.489)

24 yanvar 2026-cı il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# Azərbaycanın dünya iqtisadiyyatında etibarlı və fəal tərəfdaşlıq imicinin ifadəsi – Dünya İqtisadi Forumu




Azərbaycan malik olduğu resurs və yerləşdiyi əlverişli coğrafi ərazidən səmərəli istifadə etməklə irəli sürdüyü mühüm təşəbbüslərlə, irimiqyaslı layihələrlə beynəlxalq iqtisadi münasibətlər sistemindəki yeri və rolunu xeyli gücləndirməkdədir. Təsadüfi deyil ki, son illərdə dünyanın bir sıra aparıcı təşkilatları ölkəmizlə fəal əməkdaşlığa can atır, öz sıralarında respublikamızı görmək istəyən siyasi, iqtisadi platformaların sayı artır. Bu xüsusda dünya iqtisadiyyatının mənzərəsinin müəyyənləşdirilməsi, münasibətlərin nizama salınması baxımından mühüm əhəmiyyət daşıyan Dünya İqtisadi Forumunu da qeyd etmək olar. Prezident İlham Əliyevin mütəmadi olaraq DİF-in illik toplantılarına dəvət olunması, ölkəmizin beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsi, yeni dövrün çağırışları prosesində vacib aktor olduğunu sübut etməklə respublikamıza, aparılan məharətli diplomatiyaya olan güclü etibar və etimaddan xəbər verir.

***Azərbaycan-DİF əlaqələri tarixi köklərə və müasir çağırışlara söykənir***

Dünyanın reytinqi yüksək olan aparıcı beynəlxalq iqtisadi forumu hesab edilən DİF 1971-ci ildə İsveçrədə biznesmen, professor Klaus Şvab tərəfindən təsis olunub, dövlət və hökumət başçılarının, yüksəkvəzifəli biznesmenlərin, elm və din xadimlərinin iştirakı ilə keçirilən geniştərkibli illik iclasdır. Forum əksər hallarda İsveçrənin Davos şəhərində təşkil olunduğu üçün məhz belə adlandırılır. DİF-Azərbaycan əlaqələrinin tarixi ötən əsrin 90-cı illərinə təsadüf edir və Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, 1995-ci il yanvarın 27-31-də dahi şəxsiyyət həmin forumda iştirak edərək münasibətlərin təməlini qoyub və hazırda Prezident İlham Əliyev mövcud ənənəni uğurla davam etdirir. 2007-ci ildən bəri hər il ölkə başçısının Davos İqtisadi Forumuna dəvət alması, Azərbaycanın forumda uğurla təmsil olunması Cənubi Qafqaz liderinin regional siyasi, iqtisadi gücünün, beynəlxalq əməkdaşlıqlardakı etibarlı tərəfdaş imicinin göstəricisidir. İrəli sürülən ideyaların dəstəklənməsi qazanılan yüksək etimadın nəticəsidir ki, 2013-cü il aprelin 12-də Dünya İqtisadi Forumunun iştirakçıları Azərbaycana gəliblər. “Dayanıqlı dinamizm” devizi altında paytaxt Bakıda keçirilən forum çərçivəsində iqtisadi vəziyyəti proqnozlaşdıran tanınmış iqtisadçılar, ekspertlər, dövlət və hökumət nümayəndələri bəşəriyyəti narahat edən mühüm iqtisadi məsələləri müzakirə ediblər. Dünya İqtisadi Forumu çərçivəsində müzakirəyə çıxarılan məsələlər Azərbaycanın illərdir, apardığı xarici və daxili siyasi xəttin, reallaşdırdığı layihələrin, proqramların başlıca hədəflərindəndir. Ölkəmizin Avrasiyanın nəqliyyat xəritəsinin mərkəzində yerləşməsi, Avropa və Asiya arasında ticarət körpüsü yaratması, eyni zamanda bu müstəvidə yaxın gələcəkdə reallaşacaq Zəngəzur dəhlizi layihəsi, sözsüz ki, respublikamızın dünya iqtisadi sistemindəki mövqeyini xeyli gücləndirəcək. Həmçinin COP-29 mötəbər tədbir çərçivəsində atılan uğurlu addımlar, ölkəmizin irəli sürdüyü “yaşıl gündəlik” konsepsiyası, Qarabağ, Şərqi Zəngəzur və Naxçıvanın “yaşıl enerji zonası” elan olunması və buna müvafiq hədəflərin müəyyənləşməsi yaxın gələcəkdə Davos iqtisadi platformasında Azərbaycanın milli maraqlarına uyğun yeni yanaşmaların, modellərin daha çox müzakirə predmetinə çevriləcəyinə əminlik yaradır. Bu sayədə növbəti bir neçə ildə ölkəmizin iqtisadiyyatına yeni investisiyaların yönələcəyini və beləliklə də, mövcud dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadi modelin daha möhkəmlənəcəyini proqnozlaşdırmaq olar.

Səhifə ⇨ 3

# Çin olan arzular
# Böyük Qayıdışın böyük xoşbəxtliyi




Səhifə ⇨ 5

# “Zayed İnsan Qardaşlığı Mükafatı”



## Prezident İlham ƏLİYEV:

*“Belə nüfuzlu mükafatı almaq mənim üçün böyük şərəfdir. Xüsusən də o, Birləşmiş Ərəb Əmirliklərinin qurucusu, mərhum Şeyx Zayedin adını daşıyır. Mən bu qərarı otuz ildən artıq müddətdə qan tökülməsindən, münaqişə və müharibələrdən sonra Qafqazda sülhün qurulmasında səylərimizə verilən qiymət kimi qəbul edirəm. Bu gün Cənubi Qafqaz, həmçinin yeni inkişaf mərhələsinə daxil olur. Biz beş-altı aydır sülh şəraitində yaşayırıq. Buna öyrəşirik. Öz müstəqillik tariximizdə heç zaman sülh şəraitində yaşamamışıq. Xüsusi hissdir və əlbəttə ki, böyük fürsətdir.”*

## strateji müdriklik və liderlik məharətinə verilən yüksək beynəlxalq qiymət

***Azərbaycan dövlətinin apardığı uğurlu xarici siyasət və məharətli diplomatiya onun qlobal səviyyədə nüfuzunu xeyli gücləndirməklə ölkəmizə olan etibarı və etimadı xeyli artırıb. Respublikamızın beynəlxalq siyasi, iqtisadi təşkilatlarla fəal əməkdaşlığı, dünya düzənini formalaşdıran irimiqyaslı layihələrə imza atması, Prezident İlham Əliyevin mötəbər tədbirlərə fəxri qonaq qismində dəvət alması bu hörmət və etimadın əsas göstəricilərindəndir. Dövlət başçımızın “Zayed İnsan Qardaşlığı Mükafatı”na layiq görülməsi isə Vətən müharibəsində qazanılan tarixi zəfərin sülh meydanında da müvəffəqiyyətlə tamamlanmasına verilən qiymətin, dəyərin ifadəsidir.***

Xatırlatmaq yerinə düşər ki, Şeyx Zayed Fondu BƏƏ-nin banisi Şeyx Zayed bin Sultan Əl Nəhyanın irsini yaşatmaq üçün təsis edilib. Fondun əsas missiyasının fəlsəfəsi dünyada humanizm, dözümlülük, ətraf mühitin qorunması və xalqlararası sülhün təşviqidir. “Zayed İnsan Qardaşlığı Mükafatı” dünyada sülh, həmrəylik və dinc, yanaşı yaşama prinsiplərini təşviq edən şəxslərə və qurumlara verilən nüfuzlu beynəlxalq mükafatdır. Fond bir neçə sahə üzrə mükafatlar təqdim edir. Bu mükafatlar yalnız müstəsna xidmətləri olan şəxsiyyətlərə və qurumlara verilir. İndiyədək bu mükafata layiq görülənlər arasında BMT-nin Baş katibi Antonio Quterreş, İordaniya Kralı II Abdullah və kraliçası Raniyə Əl Abdullah, mərhum Roma Papası Fransisk, Misirin Əl-Əzhəri Şərifinin şeyxi, böyük imam Əhməd Əl-Tayyib, IMAD Assosiasiyasının təsisçisi və ekstremizmə qarşı fəal, əslən Mərakeşdən olan xanım Lətifə İbn Ziyaten, keniyalı sülh və icma fəalı xanım Şəmsa Əbubəkr Fadhil, Barbadosun Baş naziri xanım Mia Amor Mottley və digər şəxslər yer alıb. “Zayed İnsan Qardaşlığı Mükafatı”nın münsiflər komitəsinin üzvü və mükafatın baş katibi Məhəmməd Əbdülsəlamın sözlərinə görə, bu il “Zayed İnsan Qardaşlığı Mükafatı” komitəsi Ermənistan və Azərbaycan arasında tarixi sülh müqaviləsini seçib. Bu müqavilə mükafatın dialoq və birgəyaşayış mədəniyyətinin təşviqi və inkişaf etdirilməsi sahəsindəki missiyasını və məqsədlərini özündə təcəssüm etdirir. Bu, qlobal sülhün irəliləməsində mühüm mərhələ və böyük diplomatik nailiyyət hesab olunur.

Bəli, Azərbaycan dünya tarixində qısa zamanda həm müharibə qazanıb, həm də sülhü bərqərar etməyə nail olan nadir ölkələrdəndir. Respublikamız siyasi iradə və strateji təmkin sayəsində dünyada alternativi olmayan tandem yaratmağı bacarıb: ədalətli müharibə, ədalətli sülh. Bu dünya praktikasında misli görünməyən yeni mübarizə, mücadilə modeli kimi də dəyərləndirilə bilər. Əgər tarixən baş verən müharibə və münaqişələrin nəticələrinə nəzər yetirsək, görərik ki, heç bir qalib tərəf məğlub olana sülh əli uzadıb, onu çıxılmaz vəziyyətdən çıxarmaq naminə humanist addımlar atmayıb. Ancaq respublikamız həm 44 günlük müharibə dönəmində, həm də sonrakı dövrdə dəfələrlə bəyan edib ki, onun başqa ölkənin ərazisini işğal etmək niyyəti yoxdur. Onun bir məqsədi var, o da beynəlxalq hüququ və ədaləti bərpa etməkdir. Prezident İlham Əliyevin yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində də dediyi kimi: ***“Bizim böyüklüyümüz və müdrikliyimiz, eyni zamanda məsuliyyətimiz göz önündədir. Biz həm 2020-ci ildə, həm 2023-cü ildə, həm də bu illər arasındakı olan hadisələr zamanı güc tətbiq edərək Ermənistana, yəni onlara layiq olan cavabı verə bilərdik. Necə ki bizim xalqımız əzab-əziyyət içində yaşayıb, necə ki bizim ərazilərimiz viran olunub, necə ki bizə qarşı hərbi cinayətlər törədilib, biz də onların şəhərlərini Ağdamın vəziyyətinə qoya bilərdik. Tam rahatlıqla və əminliklə deyə bilərəm ki, heç kim bizi dayandıra bilməzdi. Biz bunu etmədik”.***

Ölkəmiz 2020-ci ildə 44 günlük Vətən müharibəsində və 2023-cü ilin antiterror tədbirlərində əldə etdiyi mütləq qələbə ilə təkcə ərazi bütövlüyünü deyil, həm də 30 ildir, kağız üzərində qalan beynəlxalq hüququ, ədaləti bərpa etdi. Cənubi Qafqazda uzun illərdir, kök salan, münaqişə ocağı sayılan separatizmə son qoyuldu, yeni regional düzən formalaşmağa başladı. Nəticə etibarilə, postmüharibə dönəmində, yəni son 5 ildə Azərbaycan nəinki ermənilərin revanşist hərəkətlərinə sədd çəkdi, burada çaxnaşma yaratmağa çalışan müxtəlif siyasi dairələrə qarşı da qətiyyətlə mübarizə apardı. Rəsmi Bakı dəfələrlə qeyd etdi ki, Ermənistan öz gələcəyini xarici qüvvələrin maraqlarına qurban verməməlidir, sülh müqaviləsini imzalayaraq regional əməkdaşlığa qoşulmaq onun üçün yeganə çıxış yoludur. Azərbaycanla razılaşmaqdan başqa heç bir alternativ variant yoxdur.

Ötən il avqustun 8-də baş tutan Vaşinqton görüşü isə, nəhayət ki, Azərbaycanın sülh gündəliyinin beynəlxalq səviyyədə dəstəklənməsi ilə nəticələndi. Bu sadəcə, Azərbaycan-Ermənistan sülh sazişinin paraflanması deyil, Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tam və şərtsiz tanıması, revanşist xülyalardan rəsmən imtina etməsi anlamı daşıdı. Tarixi Vaşinqton razılaşması bölgəyə davamlı, dayanıqlı sülhlə yanaşı, beynəlxalq əməkdaşlıq mühiti də gətirməkdədir. Azərbaycanın təşəbbüsü olduğu və ABŞ tərəfindən dəstəklənən Zəngəzur dəhlizi layihəsinin reallaşması yaxın gələcəkdə nəinki regional ticarətə meydan açacaq, qlobal miqyasda siyasi, iqtisadi münasibətlərin dərinləşməsinə əhəmiyyətli töhfələr verəcək. Beləliklə, bu amil bir daha göstərir ki, Prezident İlham Əliyevin müəllifi olduğu sülh və əməkdaşlıq gündəliyi qlobal xarakter daşıyır və müasir çağırışlara, yeni dünya nizamına tam cavab vermək gücündədir.

Azərbaycan dövləti postmüharibə dövründə qarşıya qoyduğu hədəflərə nail olur, bölgədə həm sülhün, həm də əməkdaşlığın fəal aktoru, təşəbbüskarı kimi çıxış edir. Böyük Qayıdış siyasəti uğurla icra olunur, beynəlxalq siyasi platformalarla əlaqələr faydalılıq əmsalını gün ötdükcə daha da artırır, reytinq agentlikləri ölkəmizin uğurlarını yüksək qiymətləndirirlər. Respublikamızın milli maraqlarına uyğun bölgədə yeni ticarət arxitekturasının müvəffəqiyyətlə inşa olunması fonunda Cənubi Qafqaz artıq münaqişə zonası deyil, qlobal sabitlik, logistika və enerji mərkəzi kimi tanınmaqdadır. Bütün bunların timsalında Prezident İlham Əliyevin “Zayed İnsan Qardaşlığı Mükafatı”na layiq görülməsi Azərbaycanın sülh, əməkdaşlıq diplomatiyasına beynəlxalq rəğbətin ifadəsi olmaqla dövlət başçımızın strateji müdriklik və liderlik məharətinin dünya miqyasında böyük etimad qazandığını göstərən mühüm amildir.

Dövlət başçımız yanvarın 20-də Davosda “Euronews” televiziyasına müsahibəsində də bu mükafata layiq görülməyin böyük şərəf olduğunu vurğuladı: “Belə nüfuzlu mükafatı almaq mənim üçün böyük şərəfdir. Xüsusən də o, Birləşmiş Ərəb Əmirliklərinin qurucusu, mərhum Şeyx Zayedin adını daşıyır. Mən bu qərarı otuz ildən artıq müddətdə qan tökülməsindən, münaqişə və müharibələrdən sonra Qafqazda sülhün qurulmasında səylərimizə verilən qiymət kimi qəbul edirəm. Bu gün Cənubi Qafqaz, həmçinin yeni inkişaf mərhələsinə daxil olur. Biz beş-altı aydır sülh şəraitində yaşayırıq. Buna öyrəşirik. Öz müstəqillik tariximizdə heç zaman sülh şəraitində yaşamamışıq. Xüsusi hissdir və əlbəttə ki, böyük fürsətdir”.

**“Şərq qapısı”**

# Azərbaycanın dünya iqtisadiyyatında etibarlı və fəal tərəfdaşlıq imicinin ifadəsi –




# Dünya İqtisadi Forumu

## Azərbaycan həm müharibə, həm də sülhün qalibi kimi 56-cı iclasın fəal iştirakçısıdır

*(əvvəli 1-ci səhifədə)*

Təqdirəlayiq hal həm də ondadır ki, Davosda təmsil olunan Avropa ölkələri Azərbaycanla birgə əməkdaşlığa can atan əsas tərəf kimi özünü göstərir, müxtəlif platformalar vasitəsilə enerji hasilatını artırmaq üçün təşəbbüslərlə çıxış edir. Məhz 2022-ci ilin iyul ayında Azərbaycan və Avropa Komissiyası arasında "Enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nun, eləcə də ondan qabaq və sonra bir sıra ölkələrlə qarşı tərəflərin təklifləri əsasında iqtisadiyyat, enerji, nəqliyyat sahələri üzrə əməkdaşlığa dair sənədlərin imzalanması da belə deməyə əsas verir. Azərbaycan tərəfindən bu təşəbbüslərin davamlı dəstəklənməsi qurulan əlaqələrin qısa zamanda əhəmiyyətli nəticələr verməsinə səbəb olub. Belə ki, 2021-ci ildə Azərbaycan Avropaya 8 milyard kubmetr qaz ixrac etmişdirsə, indi bu miqdar 13 milyarda çatdırılıb. Hazırda respublikamız 16 ölkəyə təbii qaz nəql edir ki, həmin ölkələrdən 10-u Avropa İttifaqının üzvüdür. Təsadüfi deyil ki, Aİ tamamilə haqlı olaraq Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa qaz təchizatçısı adlandırır. Prezident İlham Əliyev Davosda "Euronews" televiziyasına müsahibəsindən sonra bu telekanalın təşkil etdiyi "Azərbaycan rəhbərliyi ilə səhər yeməyi" adlı tədbirdə çıxışı zamanı da Avropanın təbii qazla təminatı məsələsinə xüsusi toxundu və gələcəkdə ixracatın daha da artacağını vurğuladı. Sitat: ***"Rusiya-Ukrayna müharibəsinin başlamasından sonra Avropa İttifaqı Komissiyasının Prezidenti Bakıya səfər etdi və biz enerji sektorunda strateji tərəfdaşlıqla bağlı sənəd imzaladıq. Biz Avropaya qaz təchizatının həcminin iki dəfə – ovaxtkı 8 milyard kubmetrdən 16 milyard kubmetrə qədər artırmaqla bağlı razılığımızı bildirdik. Beləliklə, 3 ildən artıq bir dövrdə biz bu rəqəmi, təxminən, 13 milyard kubmetrə çatdırmışıq və həcm artacaqdır".***

Davosda təşkil olunan Dünya İqtisadi Forumunun sayca 56-cı iclasında 130-dan artıq ölkədən 3000 nümayəndə iştirak edir. Tədbirə 65 dövlət və hökumət başçısı daxil olmaqla, 400 siyasi lider, 850-dən çox iri şirkət rəhbəri, eləcə də qabaqcıl texnologiya sahəsində fəaliyyət göstərən nüfuzlu liderlər qatılıb. Özlüyündə bu geniş təmsilçilik forumun qlobal miqyasda dialoq və əməkdaşlıq üçün mühüm platforma rolunu oynadığını göstərir. Forumun 2026-cı il toplantısı çərçivəsində qlobal çağırışlara cavab olaraq beş əsas prioritet müəyyən edilib. Bu prioritetlər qlobal iqtisadi artım tempinin zəiflədiyi bir şəraitdə ticarət və investisiya imkanlarının genişləndirilməsi yolu ilə yeni iqtisadi artım mənbələrinin formalaşdırılmasını, innovasiyaların, xüsusilə süni intellektin tətbiqi zamanı onların biznesə və məşğulluğa təsirinin qiymətləndirilməsini, habelə bu texnologiyalardan istifadəyə dair normativ və etik çərçivələrin müəyyənləşdirilməsini əhatə edir. Eyni zamanda beynəlxalq münaqişələr və cəmiyyət daxilində etimadın bərpası məqsədilə yeni əməkdaşlıq mexanizmlərinin araşdırılması, insan kapitalının inkişafının təşviqi və bu sahəyə investisiyaların artırılması yolu ilə əmək bazarının transformasiyası və dayanıqlılığın gücləndirilməsi əsas istiqamətlər sırasında yer alır.

Dövlətimizin başçısı builki forum çərçivəsində qarşı tərəflərin müraciəti əsasında İsrail Dövlətinin Prezidenti İsxak Hersoq, Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubb, İraq Kürdüstan Regionunun Baş naziri Məsrur Bərzani, Qətər Dövlətinin Baş naziri və xarici işlər naziri Şeyx Məhəmməd bin Əbdülrəhman bin Casim Al Tani, Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Odile Reno-Basso, Braziliyanın "BTG Pactual" şirkətinin sədri Andre Esteves, "Vestas Wind Systems" şirkətinin marketinq, kommunikasiya, davamlılıq və ictimaiyyətlə əlaqələr üzrə qrupunun baş vitse-prezidenti Morten Dirholm, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus, digər dövlət rəsmiləri, o cümlədən bir çox beynəlxalq şirkətlərin rəhbəri ilə görüşlər keçirdi. Dialoqlarda respublikamızın postmüharibə dövründə regionda yaratdığı yeni reallıqlar, ikitərəfli əlaqələrin gələcək inkişafı, iqtisadi, ticari, mədəni, humanitar sahələrdə əməkdaşlıqların dərinləşdirilməsi, qlobal maliyyə bazarlarında mövcud vəziyyət, beynəlxalq investisiya mühiti və makroiqtisadi çağırışlar barədə fikir mübadilələri aparıldı, qarşılıqlı maraqdoğuran məsələlər müzakirə edildi. Dünya İqtisadi Forumunda yaşanan ən mühüm tarixi hadisələrdən biri də sözsüz ki, ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə yaradılan Sülh Şurasının təsisi üçün "Sülh Şurasının Nizamnaməsi" sənədinin imzalanması mərasimi oldu.



Sülh Şurasına təsisçi üzv dövlət qismində Azərbaycanın dəvət olunması Azərbaycan-ABŞ strateji tərəfdaşlığının və ölkəmizin dünyada sülhün təşviqində oynadığı rolun təcəssümüdür. Eyni zamanda forum çərçivəsində Prezident İlham Əliyevlə Donald Tramp arasında görüş də keçirildi ki, bu hazırki dönəmdə iki ölkə münasibətlərinin gedişatının müzakirəsi, gələcək birgə fəaliyyət və ələlxüsus da Cənubi Qafqazda mövcud sülh şəraiti, Zəngəzur dəhlizinin reallaşdırılması istiqamətində görüləcək işlərin müzakirəsi baxımından vacib əhəmiyyət daşıdı.

Builki forumun Azərbaycan üçün özünəməxsusluğu həm də ondan ibarətdir ki, respublikamız təkcə müharibənin qalibi kimi deyil, həm də regiondakı mövcud sülhün memarı, yeni əməkdaşlıq trayektoriyası müəyyən edən əsas tərəf kimi təmsil olundu. Bu baxımdan, dialoqlarda sülhün gətirdiyi yeni əməkdaşlıq mühitinin qlobal iqtisadiyyata müsbət təsirlərinin müzakirəsi də yaddaqalan oldu. Dövlət başçımızın yanvarın 20-də Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Odile Reno-Basso ilə görüşündə bərpa olunan enerji sektorunda fəaliyyətin, Naxçıvanın nəqliyyat sisteminin yenilənməsinin, ölkəmizin ayrı-ayrı bölgələrində məişət tullantılarının zərərsizləşdirilməsi layihələrinin maliyyələşdirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı. Görüş zamanı bugünkü reallıqlar fonunda Naxçıvana dair məsələlərin xüsusilə nəzərə çəkilməsi Azərbaycan dövlətinin bu bölgəmizlə bağlı irəli sürdüyü təşəbbüslərə beynəlxalq ictimaiyyətin diqqətini, dəstəyini artırmaq, regiona yeni investisiyaların cəlbinə imkanlar açmaqdır. Prezident İlham Əliyev Davos Ümumdünya İqtisadi Forumunun illik toplantısı çərçivəsində "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" mövzusunda panel iclasında da Cənubi Qafqazdakı mövcud vəziyyəti yüksək qiymətləndirdi, mövcud sülhü tarixi nailiyyət adlandırdı: ***"Ötən ilin avqustunda hər iki tərəf sülh sazişini paraflamaqla və beləliklə, üç onillikdən artıq çəkən müharibə və qan tökməyə son qoymaqla tarixi nailiyyət əldə olundu. Həmin sülh sazişinin nadirliyi ondan ibarətdir ki, o, son qanlı toqquşmadan sonra iki ildən az müddətdə paraflandı. Beləliklə, bu göstərir ki, əgər hər iki tərəfin güclü siyasi iradəsi, sülhə sadiqliyi olarsa, onda siz kifayət qədər qısa müddət ərzində barışıq əldə edə bilərsiniz".***

Ümumilikdə, onu qeyd etmək olar ki, Prezident İlham Əliyevin hər il Davos İqtisadi Forumu zamanı müxtəlif mövzulu panel iclaslarda iştirakı, çıxışları, çox sayda ikitərəfli görüşlərin təşkili Azərbaycanın həm siyasi arenada, həm də iqtisadi münasibətlərdə qazandığı uğurun nəticəsi, nüfuzun göstəricisidir. Eyni zamanda bu ənənə ötən illərdə dövlət başçımızın forum çərçivəsində səsləndirdiyi fikirlərə, irəli sürdüyü təşəbbüslərə göstərilən hörmətin, etimadın, verilən dəyərin ifadəsidir. Azərbaycanın Davos İqtisadi Forumuna bəxş etdiyi töhfələrlə yanaşı, DİF-in də respublikamız üçün faydaları kifayət qədərdir. Bu beynəlxalq tədbir ölkə iqtisadiyyatına yeni xarici sərmayədarların qazanılması, eyni zamanda Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, milli maraqların ümumbəşəri maraqlara çevrilməsi baxımından olduqca önəmli yerə və rola malikdir. Bütün bu və digər mühüm amilləri nəzərə alaraq əminliklə deyə bilərik ki, 56-cı Davos Ümumdünya İqtisadi Forumu da ölkəmizin beynəlxalq aləmdə, iqtisadi münasibətlər sistemində nüfuzunun artmasına, dünya iqtisadiyyatında etibarlı və fəal tərəfdaşlıq imicinin daha da möhkəmlənməsinə, eyni zamanda bölgədə gələcək irimiqyaslı layihələrin icrasına hərtərəfli dəstəyin güclənməsinə töhfələr verəcək.

**Nail ƏSGƏROV**

# Özəl sektor – Azərbaycan iqtisadiyyatının inkişafında əsas hərəkətverici qüvvə




***Azərbaycan dövlətinin həyata keçirdiyi iqtisadi siyasətin uğur formullarından biri də özəl sektorun inkişafına, sahibkarlıq mühitinin formalaşdırılmasına geniş imkanların yaradılması prinsipinin əsas tutulmasıdır. Təbii ki, milli iqtisadiyyatımız yüksəlişə asanlıqla nail olmayıb, uzun, keşməkeşli dövrlərdən keçərək bugünkü səviyyəyə çatıb. Bu xüsusda xatırlatmaq yerinə düşər ki, ötən əsrin 90-cı illərinin əvvəllərində, yəni müstəqillik yoluna yenicə qədəm qoyan zaman ölkəmiz iqtisadi böhran məngənəsində sıxılırdı. Əhalinin yaşayış səviyyəsi olduqca aşağı düşmüş, iqtisadi fəallıq, əgər buna fəallıq demək mümkündürsə, məlum səbəblərdən zəifləmiş, iş yerləri bağlanmış, təsərrüfatçılıq ənənələri məhvə düçar edilmişdi. Belə acınacaqlı vəziyyətdən xilas olmaq üçün çıxış yollarından biri də ölkədə özəl sektorun, mikro, kiçik sahibkarlığın təşəkkül tapmasına imkanlar yaradılması idi ki, məhz Ümummilli Liderimiz Heydər Əliyevin həyata keçirdiyi praqmatik siyasət, fundamental konsepsiya sayəsində qısa zamanda buna nail olundu.***

Ulu Öndərin layiqli siyasi varisi Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etməyə başladığı 2003-cü ildən bəri isə sahibkarlığın inkişafı yeni məzmun, dəyər qazanmaqla özünün yüksəliş dövrünə qədəm qoydu. Özəl sektorun inkişafı üçün dövlət dəstəyi daha da artırıldı, yeni fəaliyyətə başlayan sahibkarlara güzəştli şərtlərlə kreditlər verilməklə onların ilkin sərmayə əldə etməsinə imkanlar yaradıldı.

Prezident İlham Əliyevin 2017-ci il 28 dekabr tarixli Fərmanı ilə yaradılan Kiçik və Orta Biznesin İnkişafı Agentliyi özəl sektorun inkişafında və bu sahəyə yeni yanaşmanın təşviqində mühüm rol oynayır. Məqsəd investisiya və biznes mühitinin daha da yaxşılaşdırılması, sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi və səmərəli əlaqələndirmənin tətbiqi, kiçik və orta sahibkarlığın ölkə iqtisadiyyatında rolunun və rəqabət qabiliyyətinin artırılması, bu sahədə idarəçilik sisteminin müasir tələblərə uyğunlaşdırılması, maliyyə resurslarına KOB subyektlərinin çıxış imkanlarının genişləndirilməsi və institusional dəstək mexanizmlərinin formalaşdırılması, sahibkarlığın hüquqi təminatının gücləndirilməsidir. BMT-nin statistik məlumatına əsasən dünya üzrə məşğulluğun 70 faizini təşkil edən KOB-ların ölkəmizdə fəaliyyəti iqtisadi inkişafa, sosial rifahın yaxşılaşdırılması prosesinə təkan baxımından uğurlu addım kimi dəyərləndirilir.

KOB inkişaf mərkəzləri yerlərdə biznesə başlamaq istəyən şəxslərə hüquq, maliyyə imkanları qazanmaqda, xarici bazarlara çıxışda, bir sözlə, hərtərəfli dəstəyin göstərilməsində, sahibkarların qanuni maraqlarının müdafiəsində vahid mərkəz funksiyası daşıyır. Bu dəstəyə biznes sahəsində bilik və bacarıqların artırılması istiqamətində ödənişsiz biznes təlimlər, informasiya və məsləhət xidməti, biznes planın hazırlanması, KOB-ların beynəlxalq ixtisasartırma proqramında iştirakı və digər məsələlər də aiddir.

Özəl sektorun, xüsusilə də mikro, kiçik və orta sahibkarlıq subyektlərinin dayanıqlığının və inkişafının təmin edilməsi üçün onların güzəştli maliyyə resurslarına çıxışı da mühüm əhəmiyyətli məsələdir. Dövlətin bu sahədə tətbiq etdiyi dəstək mexanizmləri belə sahibkarlar üçün əlverişli maliyyələşmə imkanları yaradır və onların biznes fəaliyyətlərini genişləndirməsinə təkan verir. Təqdirəlayiq haldır ki, Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 2024-cü ildə maliyyələşdirilən layihələrin 99,8 faizi, ayrılan güzəştli kredit məbləğinin isə 93,4 faizi məhz mikro, kiçik və orta sahibkarlıq subyektlərinin payına düşüb. 2025-ci ilin on ayı ərzində isə güzəştli kreditlərdən yararlanmış layihələrin 99,7 faizi mikro, kiçik və orta sahibkarlıq subyektlərinə aiddir. 2024-cü il və 2025-ci ilin həmin dövründə güzəştli vəsaitlərin əhəmiyyətli hissəsi regionların inkişafına xidmət edən layihələrə yönəldilib ki, bu da regionlarda sahibkarlığın inkişafına, yeni iş yerlərinin yaradılmasına və iqtisadi dinamikanın artmasına töhfə verir.

Son illərdə Azərbaycanda yaradılan əlverişli investisiya mühiti, bu istiqamətdə aparılan ardıcıl islahatlar qeyri-neft sektoruna yatırılan xarici və daxili sərmayələrin də artmasına səbəb olub ki, bu da təbii olaraq özəl sahədə sağlam rəqabətli mühitin formalaşmasına xidmət edib. Xüsusilə 44 günlük Vətən müharibəsindən sonra bu istiqamətdə fəaliyyət yeni müstəviyə uğurlu keçid edib, sahibkarlığın inkişafında güclü perspektivlər açılıb. Bu mənada, Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyatda özəl sektorun rolunun artırılması məqsədilə mühüm yol xəritəsi müəyyənləşdirir. Sənəddə kiçik və orta sahibkarlığın iqtisadi artımın və məşğulluğun başlıca mənbəyinə çevrilməsi üçün işgüzar mühitin əhəmiyyətli dərəcədə yaxşılaşdırılmalı olduğu vurğulanır, yeni və şəffaf özəlləşmə strategiyasının həyata keçirilməsinin vacibliyi ön plana çəkilir. Bu baxımdan, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən layihələri, yeni sənaye parklarının yaradılmasını, tranzit və infrastrukturun inkişaf etdirilməsi istiqamətində atılan addımları milli prioritetlərin icrasına xidmət etməklə qeyri-dövlət sektorunun inkişafı yolunda qarşıya qoyulan hədəflərə çatmaqda mühüm nailiyyət kimi dəyərləndirmək olar.

Azərbaycanda kiçik və orta biznesin inkişafı üçün mühüm istiqamətlər müəyyənləşdirən qanunlardan biri də, heç şübhəsiz, Prezident İlham Əliyevin 2022-ci il dekabrın 2-də təsdiq lədiyi "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" Qanundur. Qanun mikro, kiçik və orta sahibkarlığın inkişafı sahəsində münasibətləri tənzimləyir, belə sahibkarlıq subyektlərinə göstərilən dövlət dəstəyinin təşviqinin forma və metodlarını müəyyən edir. Məqsəd isə mikro, kiçik və orta sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması, onlar arasında rəqabətqabiliyyətliliyin artırılması, investisiya və innovasiya fəallığının stimullaşdırılması, eləcə də ümumi daxili məhsulun həcmində və qeyri-neft ixracında paylarının artırılmasıdır. Son bir neçə ildə aparılan iqtisadi islahatların, qəbul edilən qərarların, qanunların icrasının nəticəsidir ki, 2024-cü ildə Azərbaycanda qeyri-dövlət sektoru ümumi daxili məhsulda (ÜDM) 81,4 faiz, o cümlədən qeyri-neft-qaz sektorunda 76,1 faiz, sənaye istehsalında 81,4 faiz, o cümlədən qeyri-neft-qaz sənayesi istehsalında 71,8 faiz, xidmət sektorunda 71,9 faiz, kənd təsərrüfatı sektorunda isə 99,8 faiz paya malik olub. 1 yanvar 2019-cu il ilə müqayisədə 1 noyabr 2025-ci il tarixinə ölkədə aktiv vergi ödəyicilərinin sayı 2 dəfə artaraq 845 mini ötüb. Bu rəqəmlər bir daha göstərir ki, sahibkarlıq dövlətin iqtisadi şaxələndirmə, dayanıqlı iqtisadiyyat hədəflərinin əsasında dayanır. İş adamları xüsusilə Vətən müharibəsindən sonra suverenliyimizin və müstəqilliyimizin iqtisadi əsaslarının möhkəmlənməsinə öz töhfələrini verməkdə davam edirlər.

Prezident İlham Əliyevin şəxsən özəl müəssisələrin açılışında iştirakı da, sözsüz ki, özəl sektorun inkişafına, sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına xidmət edir. Ötən ilin noyabrında Bakının Qaradağ rayonunda "Matanat-A" şirkətinin "AZWOOL" mineral daş yunu zavodunun açılışı da dövlət başçısının sahibkarlığa, özəl sektorun inkişafına göstərdiyi diqqətin bariz ifadəsinə çevrildi. Zavodun investisiya dəyəri 43 milyon manatdır. Layihənin reallaşdırılması üçün İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 10 milyon manat güzəştli kredit ayrılıb ki, bu da dövlət dəstəyinin əyani göstəricisidir. Bununla yanaşı, müəssisə investisiya təşviqi sənədi ilə texnika, texnoloji avadanlıq və qurğuların idxalı zamanı, təxminən, 4 milyon manat güzəşt əldə edib. Zavodda 180 iş yeri yaradılıb. Zavodun açılışı yerli istehsalın təşviqi, daxili bazarın tələbatının ödənilməsi və xarici bazarda Azərbaycan məhsullarının rəqabət qabiliyyətinin artırılmasına xidmət edəcək. Müəssisə ölkəmizin mineral daş yununa tələbatını ödəməklə yanaşı, idxaldan asılılığı əhəmiyyətli dərəcədə azaldacaq. Həmçinin burada istehsal olunan məhsullar Gürcüstana, MDB və Yaxın Şərq ölkələrinə ixrac ediləcək. Beləliklə, dövlət dəstəyi hesabına yaradılan müəssisədən həm dövlət, həm sahibkar, həm də sadə vətəndaşlar qazanacaq.

Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyi ilə qeyri-neft sektorunun şaxələndirilməsi və inkişafı istiqamətində aparılan məqsədyönlü işlər nəticəsində ölkəmizdə yeni-yeni istehsal sahələri yaradılır. Bütün bunlar insanların keyfiyyətli yerli məhsullarla təminatına geniş imkanlar yaratmaqla yanaşı, yeni iş yerlərinin açılmasına, əhalinin məşğulluğunun artırılmasına böyük töhfələr verir. Yaradılan əlverişli biznes mühitinin nəticəsidir ki, 2025-ci ilin doqquz ayının göstəricilərinə əsasən özəl sektorun qeyri-neft-qaz vergi daxilolmalarındakı payı 77 faizi ötüb. Ümumilikdə, 2025-ci ilin proqnozları nəzərə alınmaqla əhalinin gəlirlərinin əsas mənbəyi olan əməkhaqqı fondu qeyri-neft-qaz özəl sektorda 2019-2025-ci illərdə üç dəfə artıb. Özlüyündə bu göstərici iqtisadi-inkişafda sahibkarlığın artan rolunu və milli iqtisadiyyatımızın çiçəklənməsində özəl sektorun əsas hərəkətverici qüvvəyə çevrildiyini sübuta yetirir.

**"Şərq qapısı"**

# Çin olan arzular

## Böyük Qayıdışın böyük xoşbəxtliyi

**Azərbaycanın işıqlı gələcəyinə hesablanan hər addımda, qəbul olunan hər Dövlət Proqramında böyük şəxsiyyətin – Heydər Əliyevin ideyaları açıq-aşkar hiss olunur. Böyük azərbaycanlı ömrünü Vətəninin xoşbəxt gələcəyinə sərf etmiş, ölkəsinin müstəqilliyi uğrunda apardığı mücadilə üçrəngli dövlət bayrağının yenidən dalğalandırılması, torpaqlarımızın işğalının dayandırılması ilə nəticələnmişdir. Ölkənin taleyinə biganə qala bilməyən dahi rəhbər xalqın gələcəyini etibarlı əllərə əmanət etmiş və yarımçıq qalan işlərin, müqəddəs arzuların gerçəkləşəcəyinə böyük inam bəsləmişdir.**




### Müqəddəs ideallar uğrunda

Hər bir xalqın xoşbəxtliyi mənsub olduğu ölkəsinin taleyindən və onu idarə edən rəhbərindən çox asılıdır. 2003-cü ildə Azərbaycan Prezidenti seçilən İlham Əliyev andiçmə mərasimində Ulu Öndərin şah əsəri olan müasir Azərbaycanı gücləndirəcəyinə, hərtərəfli inkişaf etdirəcəyinə söz vermiş, yeni qələbələrə doğru gedəcəyimizi əzmlə ifadə etmişdi. Ötən 22 ildə verilən hər sözün, hər vədin real həyatda əksini tapdığının şahidi olduq. Ölkəni iqtisadi inkişaf yoluna çıxaran, ordu quruculuğunu daim diqqətdə saxlayan, Azərbaycan həqiqətlərini beynəlxalq kürsülərdə tam cəsarətlə səsləndirən Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasəti bizi addım-addım qələbəyə yaxınlaşdırırdı. Ölkə başçısı fəaliyyəti ilə bir daha göstərdi ki, Qarabağın azad edilməsi, ölkənin suverenliyi ən böyük arzusu idi və bu müqəddəs ideallar uğrunda dövlət-xalq-ordu birliyini yaradaraq şanlı zəfərə imza atdı. 10 may 2023-cü il tarixdə 30 illik düşmən əsarətindən azad olunan Qarabağın tacı Şuşada Prezident İlham Əliyevin Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı xalqa müraciəti siyasi kursa sadiqliyin, Vətənə məhəbbətin, torpağa bağlılığın, tarixə sayğının bariz nümunəsi idi: ***"Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu Şuşanı, Qarabağı və Zəngəzuru azad görmək idi. Biz onun və bütün Azərbaycan xalqının, bütün dünya azərbaycanlılarının arzusunu çin etdik".***

### Şanlı zəfərin Böyük Qayıdış salnaməsi

Ölkə başçısı yalnız Qarabağ və Şərqi Zəngəzur torpaqlarını işğaldan azad etmədi, eyni zamanda bəslənən ümidləri, zamanında göstərilmiş etimadı, xalqın inamını doğrultdu. 30 il düşmən işğalında inləyən torpağın yaralarını sardı, 30 il ürəyi Vətən həsrəti ilə döyünən, yurdundan, yuvasından didərgin düşənlərin nisgilinə son qoydu, şəhidlərin qisası alındı. 30 ildə düşmənin bərbad etdiyi torpaqlara yenidən can verdi. 16 noyabr 2022-ci il tarixdə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam Qarabağ və Şərqi Zəngəzurda bərpa-quruculuq layihələrinin başlanmasına, istehsal və xidmət infrastrukturunun qurulmasına, iqtisadi fəaliyyətin, nəqliyyat-kommunikasiya xətlərinin bərpasına rəvac verdi.

Hazırda azad olunmuş ərazilərdə 70 mindən çox insan yaşayır, fəaliyyət göstərir və təhsil alır ki, bu da bəhs olunan dövr ərzində həyata keçirilən layihələrin uğurlu icrasının nəticələridir. Hər ay Qarabağa qayıdan vətəndaşların sayı artır. Ölkə başçısının Qarabağ və Şərqi Zəngəzura davamlı səfərləri yeni layihələrin icrası, sosial obyektlərin açılışı, əhalinin məskunlaşması ilə nəticələnib.

### Ağalıda çağlayan həyat

Ölkə başçısının daim diqqətdə saxladığı və böyük həssaslıqla yanaşdığı "Böyük Qayıdış" proqramının uğurlu icrası nəticəsində bu vaxta kimi, ümumilikdə, 30-dan çox yaşayış məntəqəsinə əhalinin köçürülməsi həyata keçirilib. İlk köç 2022-ci ilin iyulunda "ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə qayıdışla başladı. Bu yalnız insanların öz doğma yurduna qayıdışı deyildi, inamın, əzmin, səbrin gücü idi.

Ümummilli Liderin xilaskarlıq missiyasını uğurla davam etdirən ölkə başçısı İlham Əliyevə xalqın inamı, sevgisi və ətrafında sıx birləşməsi, qaçqın və məcburi köçkünlərin öz yurd-yuvalarına böyük həvəslə qayıdışı Qarabağ və Şərqi Zəngəzurda yenidən qurulan həyatın ritmini daha dinamik, daha rəngarəng edib. Modern üslubda yenidən qurulan şəhər, kənd və qəsəbələr Qarabağı dünyanın cənnətinə çevirir.

İşğaldan azad edilmiş ərazilərdə mədəni irsin qorunması, təhsil infrastrukturu, dini və mədəni abidələrin restavrasiyası və konservasiyası üzrə ardıcıl tədbirlər həyata keçirilib. Bu illər ərzində 19 ümumi, 13 məktəbəqədər təhsil müəssisəsi istifadəyə verilib. Onlardan 16 ümumi və 7 məktəbəqədər təhsil müəssisəsi hazırda fəaliyyət göstərir. Təhsil müəssisələrində 3700-ə yaxın şagird və 260-dan çox uşaq təhsil alır, ümumilikdə, 500 müəllim və texniki işçi fəaliyyət göstərir.

Xankəndi şəhərində Qarabağ Universitetinin fəaliyyətə başlaması isə bölgəni ali təhsil mərkəzinə çevirib. Hazırda təhsil müəssisəsində 27 ixtisas üzrə 6 fakültədə 2154 tələbə təhsil alır. 2025-ci il dekabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Qarabağ Universitetinin Biznes və iqtisadiyyat fakültəsinin yeni inşa olunmuş binası istifadəyə verildi. Ölkənin gələcəyinin bir parçası olacaq Qarabağ Universitetinin tələbələri müzəffər Ordumuzun cəsur oğullarının qanı-canı bahasına aldığı, ölkə başçısının iradəsi, diqqət və qayğısı ilə yenidən həyat verilən torpaqlardan ixtisaslı mütəxəssis kimi pərvazlanacaqlar. Və bu yurdun alınmaz qalasına çevriləcəklər. İnsan kapitalına verilən dəyər, milli irsə bağlılıq, tarixə sayğı və Böyük Qayıdış Qarabağın başının üzərində 200 il kök salmış qara buludları müstəqilliyimizin simvolu olan bayrağımızın mavi rənginə boyadı.

### MDB-nin mədəniyyət paytaxtından İƏT-in turizm paytaxtına

Azad olunmuş ərazilərdə beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi artıq bir ənənə halını alıb. Şuşada ECO-nun Nazirlər Şurası, Türk Dövlətləri Təşkilatının ilk qeyri-rəsmi Zirvə görüşü, Laçında Azərbaycan, Türkiyə və Pakistan rəhbərlərinin üçtərəfli Zirvə görüşü, Şuşa Beynəlxalq Media Forumu, Xankəndidə İƏT-in 17-ci Zirvə görüşü ölkə başçısının apardığı xarici siyasətin və bütün dünyanın diqqətinin Qarabağda aparılan işlərə yönəldilməsinin uğurlu nəticələridir.

Laçın şəhərinin 2025-ci ildə "MDB-nin mədəniyyət paytaxtı" elan olunması isə mühüm sosial-mədəni əhəmiyyət daşıyır və Azərbaycanın işğaldan azad edilmiş ərazilərində mədəni və iqtisadi dirçəliş prosesinə beynəlxalq ictimaiyyətin dəstəyinin və həmrəyliyinin parlaq göstəricisidir.

Ötən müddət ərzində inşa edilən mehmanxanalar, salınan park və istirahət kompleksləri turizm sektorunun bu ərazilərdə inkişafını da hədəfləyir. Təsadüfi deyil ki, Şuşa 2026-cı il üçün İqtisadi Əməkdaşlıq Təşkilatının turizm paytaxtı seçilib.

### Mədəni irsə qayğı, soykökə qayıdış

Azad olunmuş ərazilərin bərpası yalnız infrastrukturun və abidələrin fiziki yenidən qurulmasını deyil, həm də mədəni həyatın dirçəlişini nəzərdə tutur. Tarixi-mədəni irsin, milli-mənəvi dəyərlərin qorunması, həmçinin dini ziyarətgahların, maddi mədəniyyət abidələrinin bərpası və mühafizəsi Heydər Əliyev Fondu tərəfindən də daim diqqət mərkəzində saxlanılır. Ötən dövr ərzində dini abidələr bərpa edilib, Şuşa, Ağdam və Zəngilan şəhərlərində tarixi məscidlər təmir olunub, Şuşa, Suqovuşan, Daşaltı və Hadrut qəsəbələrində yeni məscidlər inşa edilir. Vaqif Poeziya Günləri, "Xarıbülbül" festivalı bərpa edilərək hər il keçirilir. "Məclisi-üns", "Şuşa Yaradıcılıq Emalatxanası" layihələri, 100-dən artıq beynəlxalq və regional tədbir təşkil olunub. Tam və ya qismən dağıdılmış muzeylər bərpa edilib, İşğal və Zəfər muzeyi kompleksi üçün 9 konsepsiya hazırlanıb, 6-sı layihələndirilib. Ağdamda Xurşidbanu Natəvanın qəbirüstü abidəsi, "Şirin su" hamamı və "İmarət" Tarix-Memarlıq Kompleksi bərpa edilib. Bir sıra ərazilər beynəlxalq irs siyahılarına daxil edilib.

## Yolumuz Qarabağa

İşğaldan azad edilmiş ərazilərdə görülən işlər sırasında 2020-2025-ci illərdə nəqliyyat infrastrukturu üzrə icra olunan böyük layihələr dayanır. Ölkə başçısının tapşırıq və göstərişlərinə əsasən abadlıq-quruculuq işləri sırasında avtomobil yolların infrastrukturunda 60 layihə üzrə 3501,6 kilometr yolun tikintisi nəzərdə tutulub, bunlardan 16 layihə tam, 1 layihə qismən başa çatıb. Füzuli, Zəngilan və Laçında beynəlxalq standartlara uyğun hava limanları inşa edilərək istifadəyə verilib. Bu limanlara IATA kodları verilib və rəsmi açılış mərasimləri keçirilib. Dəmir yolu infrastrukturunun da yenilənməsi diqqətdə saxlanılıb. Bərdə-Ağdam, Horadiz-Ağbənd və Ağdam-Xankəndi dəmir yolu xətləri üzrə layihələndirmə və tikinti işləri aparılıb. Bərdə-Ağdam dəmir yolu xətti tam istifadəyə verilib.

30 il ərzində hədəfimiz torpaqlarımızı düşməndən azad etmək idi. Bu müqəddəs arzunu illərlə ürəyimizdə bəslədik, övladlarımızı bu ruhda böyütdük. Bu gün isə yolumuz Qarabağadır – azad, abad Qarabağa.

Ölkə başçısının *"Yadımdadır, işğaldan sonra ilk dəfə Ağdamda ağdamlılarla görüşəndə və yeni şəhərin təməlini qoyanda mən demişdim, elə bir şəhər quracağıq ki, bütün dünya bizə həsəd aparacaq"* fikirləri bu gün reallığını Böyük Qayıdışın uğurlu icrasında göstərir. Ötən il dekabrın 23-də Xankəndi şəhərinin Kərkicahan qəsəbəsinin sakinləri ilə görüşündə Prezident İlham Əliyevin də dediyi kimi: *"Böyük Qayıdış" proqramı bu gün dünya miqyasında ən uğurla icra edilən qayıdış proqramıdır".*

**Ruhiyyə RƏSULOVA**

# Səlahiyyətli nümayəndə muxtar respublikanın bir qrup ziyalısı ilə görüşüb




Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin “Naxçıvan Muxtar Respublikası təltiflərinin verilməsi haqqında” Sərəncamı ilə muxtar respublikanın elm, təhsil, səhiyyə və sosial-iqtisadi həyatında uzunmüddətli və səmərəli fəaliyyətlərinə görə təltif olunmuş şəxslərlə görüşüb. Görüş zamanı onların illər ərzində göstərdikləri xidmətlərin cəmiyyətin inkişafında mühüm rol oynadığı vurğulanıb.

Təltif edilən şəxsləri əldə etdikləri nailiyyətlər münasibətilə təbrik edən səlahiyyətli nümayəndə onların peşəkar fəaliyyətinin gənc nəsil üçün nümunə olduğunu qeyd edib. Bildirilib ki, bu sahələrdə aparılan ardıcıl və məqsədyönlü fəaliyyət muxtar respublikanın sosial-iqtisadi inkişafına mühüm töhfə verir.

Görüşdə təltif olunan şəxslər uzunmüddətli fəaliyyətlərinə verilən yüksək qiymətə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını ifadə edib, bundan sonra da ölkəmizin inkişafı naminə fəaliyyətlərini davam etdirəcəklərini bildiriblər.

Səmimi şəraitdə baş tutan görüşdə fikir mübadiləsi aparılıb, qarşıda duran vəzifələr və gələcək fəaliyyət istiqamətləri ilə bağlı ümumi müzakirələr həyata keçirilib.

# Naxçıvanda 20 Yanvar şəhidlərinin xatirəsi anılıb





Naxçıvanda 20 Yanvar faciəsinin 36-cı ildönümü ilə əlaqədar Şəhidlər xiyabanı ziyarət edilib.

Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov, dövlət və hökumət nümayəndələri, Ali Məclisin deputatları, Türkiyə Cümhuriyyəti və İran İslam Respublikasının Naxçıvan Muxtar Respublikasındakı Baş konsulları və yüzlərlə sakin Şəhidlər xiyabanını ziyarət edib, qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla yad ediblər.

Şəhidlər xiyabanındakı Ana abidəsi və qardaş Türkiyə ordusunun şəhid olmuş əsgərlərinin xatirəsinə ucaldılmış abidə də ziyarət olunub, önünə güllər düzülüb.





# Naxçıvanda 20 Yanvar – Ümumxalq Hüzn Günü ilə əlaqədar sərgi təşkil edilib

Yanvarın 19-da Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda “Şəhərsalma və Memarlıq İli” çərçivəsində 20 Yanvar – Ümumxalq Hüzn Gününə həsr olunan “Şanlı tariximizin qəhrəmanlıq salnaməsi” adlı sərgi təşkil edilib.

Sərgidə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədov, dövlət və hökumət nümayəndələri, Ali Məclisin deputatları, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvləri, təhsil müəssisələrinin müəllim, tələbə və kursant heyəti iştirak ediblər.



Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Əməkdar rəssam Ülviyyə Həmzəyeva tədbiri giriş sözü ilə açaraq bəşər tarixinin ən dəhşətli faciələrindən biri olan 20 Yanvar faciəsinin baş vermə səbəbləri və ağır nəticələrindən bəhs edib, Ümummilli Lider Heydər Əliyevin bu qanlı faciəyə ilk dəfə siyasi-hüquqi qiymət verməsindən danışıb.

Sonra sərgiyə baxış olub. Məlumat verilib ki, sərgidə 20 Yanvar faciəsini özündə əks etdirən 14 rəssamın 30 rəsm əsəri nümayiş olunur.

Sonda xatirə fotosu çəkdirilib.



# 20 Yanvar şəhidləri bir dəqiqəlik sükutla yad edilib



Ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da 20 Yanvar şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Dövlət bayraqları yarıyadək endirilib, sərnişinlərin, nəqliyyatın hərəkəti bir dəqiqəlik dayandırılıb.

# Naxçıvanda 20 Yanvar şəhidlərinin xatirəsi ehtiramla yad olunub

Qanlı Yanvar hadisələrindən 36 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub. Həmin gün ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikamızın şəhər və rayonlarında şəhidlərin xatirəsi anılıb, səhər saatlarından başlayaraq Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarındakı Şəhidlər xiyabanlarını ziyarət edən ictimaiyyət nümayəndələri, idarə, komitə və təşkilatların kollektivləri şəhidlərin xatirəsini ehtiramla anıb, məzarları üzərinə tər güllər düzüblər. Qəhrəman şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub, dövlət bayraqları yarıyadək endirilib, nəqliyyatın hərəkəti bir dəqiqəlik dayandırılıb.



1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş sovet ordusunun hərbi hissələri Bakı şəhərində öz suverenliyini əldə etmək üçün ayağa qalxan dinc əhaliyə qarşı misli görünməmiş qətliam törədib. Bu qanlı cinayət insanların azadlıq eşqini söndürə bilməyib, xalqımız qanı bahasına da olsa, öz dövlət müstəqilliyinə qovuşub. Milli birlik və vətənpərvərliyin simvoluna çevrilmiş 20 Yanvar faciəsi xalqımızın öz azadlığı uğrunda apardığı mübarizənin şərəfli tarixidir.


















































# Naxçıvan Muxtar Respublikasında 2025-ci ilin sosial-iqtisadi inkişafının yekunları

2025-ci ilin yekunlarına dair sosial-iqtisadi göstəricilər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məqsədyönlü və uzaqgörən siyasətinin, ölkədə ardıcıl şəkildə həyata keçirilən sosial-iqtisadi islahatların, regional inkişafın gücləndirilməsinə və investisiya mühitinin yaxşılaşdırılmasına yönəlmiş sistemli tədbirlərin Naxçıvan Muxtar Respublikasında iqtisadi fəallığın davamlı artımını təmin etdiyini nümayiş etdirir. Qeyd olunan dövrdə Ümumi Daxili Məhsulun (ÜDM) həcmi, büdcə və vergi daxilolmaları, ticarət və xidmətlər sektoru, sənaye, nəqliyyat, xarici ticarət, investisiya qoyuluşları, həmçinin sosial təminat və məşğulluq sahələri üzrə müsbət dinamika müşahidə olunmuşdur.

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin Mətbuat xidmətindən verilən məlumata görə hesabat dövründə Naxçıvan Muxtar Respublikasında ÜDM istehsalı 1 709,4 milyon manat olmuşdur. ÜDM həcmi 2024-cü illə müqayisədə real ifadədə 3,8% artmışdır. Daxili bazarda pərakəndə ticarət dövriyyəsi 4,0% artaraq 1 366,3 milyon manat, əhaliyə göstərilən ödənişli xidmətlər isə 0,3% artaraq 198,5 milyon manat olmuşdur.

2025-ci ildə sənaye məhsulu istehsalı 7,2% artaraq 474,2 milyon manat olmuşdur. Həmçinin xarici ticarət dövriyyəsi 130,1 milyon ABŞ dolları təşkil etmişdir. Ötən illə müqayisədə xarici ticarət dövriyyəsi, ümumilikdə, 3,7%, o cümlədən idxal 1,4%, ixrac isə 28,4% artmışdır.

Eyni zamanda 2025-ci ildə əsas kapitala 397,3 milyon manat vəsait yönəldilib ki, bu da 2024-cü illə müqayisədə 45,2% artım deməkdir. Vəsaitin 40,5%-i məhsul istehsalı sahələrinə, 30,9%-i xidmət sahələrinə, 28,6%-i yaşayış evlərinin tikintisinə sərf olunmuşdur.

Büdcə gəlirləri 290,65 milyon manat olmaqla, 2024-cü illə müqayisədə 11,3% artıb. Daxilolmalarda vergi orqanları üzrə 260,4 milyon manat, gömrük orqanları üzrə 18,3 milyon manat, büdcə təşkilatlarının ödənişli xidmətləri üzrə 2,5 milyon manat, digər daxilolmalar üzrə isə 9,45 milyon manat qeydə alınmışdır.

Muxtar respublikada inkişaf prioritetlərinə uyğun olaraq infrastrukturun yenilənməsi, sahibkarlığın təşviqi, yeni iş yerlərinin yaradılması və əhalinin rifahının yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər iqtisadi fəallığın genişlənməsinə mühüm töhfə verib.

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda əməliyyat müşavirəsi keçirilib





Yanvar ayının 19-da Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası, Naxçıvan şəhər və digər tabe rayon prokurorluqlarının əməkdaşlarının iştirakı ilə videoformat rejimində 2025-ci il ərzində cinayətkarlığa qarşı mübarizə, ədalət mühakiməsinin həyata keçirilməsində iştirak, qanunların icra və tətbiq olunmasına nəzarət, cinayət mühakimə və cinayət təqibindən kənar icraatlarda insan hüquq və azadlıqlarının müdafiəsi və qanunla müəyyən edilmiş digər sahələrdə görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilib.

Giriş nitqi ilə çıxış edən Baş prokuror Azərbaycan Prokurorluğunun qanunçuluğun etibarlı təminatçısı kimi cinayətkarlığa qarşı barışmaz mübarizəsinin və qanunun aliliyinin bərqərar olunmasında sarsılmaz mövqeyinin, fəaliyyətinin hərtərəfli təminatı üçün qanunvericilik və maddi-sosial bazanın formalaşdırılmasında xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi ilə aparılan hüquq islahatlarının, görkəmli dövlət xadiminin prokurorluğa olan xüsusi qayğısı və dəstəyi nəticəsində mümkün olmasını qeyd edib, o cümlədən Naxçıvan Muxtar Respublikasının da hərtərəfli inkişafının Ulu Öndər Heydər Əliyev tərəfindən daim diqqətdə saxlanıldığını xüsusilə vurğulayıb.

Baş prokuror qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən möhtərəm Prezident cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən ölkəmizin hərtərəfli, o cümlədən sosial-iqtisadi inkişafı, insanların yüksək səviyyədə rifahının təmin edilməsi istiqamətində mühüm islahatlar aparılmış və bu hazırda da davam etdirilməkdədir.

Çıxışda, həmçinin qeyd edilib ki, yola saldığımız 2025-ci il, eyni zamanda tarixi və əlamətdar hadisələrlə zəngin bir il olub. 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 dekabr tarixli Sərəncamı ilə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı suveren ərazilərimizdə bir sıra tədbirlər keçirilib.

Baş prokuror 2025-ci ilin avqust ayının 8-də ABŞ-nin paytaxtı Vaşinqtonda, Ağ Evdə Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin paraflanmasını xüsusi vurğulayaraq bu addımın dövlətimizin beynəlxalq siyasi müstəvidə və diplomatiya sahəsində əldə etdiyi uğurlarının kulminasiya nöqtəsi olduğunu qeyd etdi.

Daha sonra hesabat məruzəsi ilə çıxış edən Naxçıvan Muxtar Respublikası prokuroru Sənan Paşayev fəaliyyət istiqamətləri üzrə görülən işlərə və statistik göstəricilərə istinad etməklə hesabat dövründə muxtar respublikada kriminogen durumun nəzarətdə saxlanıldığını, daxili işlər, dövlət təhlükəsizliyi və digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ölkəmizdə ictimai-siyasi sabitliyin qorunduğunu, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi sahəsində zəruri tədbirlərin görüldüyünü qeyd edib.

Bildirilib ki, 2025-ci il ərzində Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanlarında 31 cinayət işinin ibtidai istintaqı aparılıb və həmin cinayət işlərindən 17-nin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilib. Hər iki hesabat dövründə Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanları üzrə cinayətlərin açılma faizi 100% təşkil edib.

Bundan başqa, qeyd olunub ki, 2025-ci ildə Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanlarına daxil olan 647 müraciətə müvafiq qaydada baxılmış, eləcə də Naxçıvan Muxtar Respublikası Prokurorluğunda 296, tabe rayon (şəhər) prokurorluqlarında isə 357 olmaqla, ümumilikdə, 653 vətəndaş qəbul edilərək dinlənilmiş, müraciətlərinə müvafiq olaraq izahların verilməsi və onların həlli istiqamətində müvafiq tədbirlərin icrası həyata keçirilmişdir. Bundan əlavə, hesabat dövründə Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanları əməkdaşları tərəfindən qanunvericiliyin təbliği ilə bağlı çoxsaylı tədbirlər keçirilib, o cümlədən 36 dəfə mətbuatda, 42 dəfə televiziyada çıxışlar edilib.

Geniş kollegiya iclasında görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin icrasına toxunulmaqla əldə olunan uğurlar, habelə xidməti fəaliyyət zamanı yol verilmiş nöqsanlar ətraflı müzakirə edilib.

Geniş kollegiya iclasına yekun vuran Kamran Əliyev xidməti fəaliyyətin təkmilləşdirilməsi, hesabat dövründə yol verilmiş nöqsanların aradan qaldırılması ilə bağlı zəruri tapşırıqlar verərək sonda Naxçıvan Muxtar Respublikası Prokurorluq orqanlarının hər bir əməkdaşının gələcək fəaliyyətləri zamanı qanunla üzərlərinə qoyulmuş vəzifələrin icrası istiqamətində öz bilik və bacarıqlarını bütünlüklə səfərbər edəcəklərinə, dövlətimizin və xalqımızın mənafeyi uğrunda xidməti öhdəliklərini layiqincə yerinə yetirəcəklərinə əminliyini ifadə edərək onlara uğurlar arzu edib.

# Akademik İsmayıl Hacıyevin kitablarının təqdimatı olub



Yanvarın 21-də Milli Kitabxanada AMEA Naxçıvan Bölməsinin sədri, Əməkdar elm xadimi, akademik İsmayıl Hacıyevin kitablarından ibarət kolleksiyanın və "Akademik İsmayıl Hacıyev" adlı ənənəvi və elektron kitab sərgilərinin təqdimat mərasimi keçirilib.

Bu barədə Milli Kitabxanadan bildirilib.

Tədbirdə Milli Kitabxananın direktoru, professor Kərim Tahirov İsmayıl Hacıyevin çoxşaxəli fəaliyyətindən danışıb. Qeyd edib ki, saysız-hesabsız elmi əsərlər müəllifi olan, Naxçıvan Muxtar Respublikasının tarixinin salnaməsini yaradan tədqiqatçı-alim Milli Kitabxanaya 170-dən artıq kitabını hədiyyə edib. O həm Milli Kitabxananın fondunu xeyli zənginləşdirib, həm də tarix elminə böyük hədiyyə olan kitablarının gələcək nəsillər üçün etibarlı mühafizə olunmasına və öyrənilməsinə şərait yaradıb. Kərim Tahirov, həmçinin akademik İsmayıl Hacıyevin onlarla tarixçi alimlərin yetişməsində xidmətlərindən də danışaraq zalda əyləşənlərin əksəriyyətinin onun tələbələri və yetişdirmələri olduqlarını da diqqətə çatdırıb.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli bildirib ki, Milli Kitabxanada təşkil olunan bu təqdimat İsmayıl Hacıyevin ilk kitab təqdimatıdır. O, Azərbaycan milli dövlətçilik ideologiyasının alimin kitablarında və məqalələrində də əsas süjet xətti olduğunu qeyd edərək vurğulayıb ki, İsmayıl Hacıyev tarixşünaslıq yanaşmasında tarixi faktların, real hadisələrin analitik əsaslarla təqdimatını xronoloji ardıcıllığı ilə qeydə alıb. Xüsusilə Ulu Öndər Heydər Əliyevin fəaliyyətinin Naxçıvan dövrü barədə İsmayıl Hacıyevin tədqiqatlarından danışan AMEA-nın prezidenti bu əsərlərin bu gün çox qiymətli mənbələrə çevrildiyini xüsusilə vurğulayıb. Akademik İsa Həbibbəyli bildirib ki, İsmayıl Hacıyev öz əsərləri ilə elmi dövriyyəyə çoxlu sayda sənədlər, arxiv materialları təqdim edib və onun tədqiqatları dövlət siyasətimizə və elmi tələblərə cavab verir. Tarixi şəxsiyyətlərə qayıdış haqqında tutduğu mövqenin Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyev haqqında yazdığı kitablarla ən yüksək zirvəsinə çatdığını qeyd edərək obyektiv tarixçi-alim olan İsmayıl Hacıyevə yeni uğurlar arzulayıb.

Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı söyləyib ki, tarixin ən qədim dövrlərindən bu günə qədər olan elə bir səhifəsi yoxdur ki, İsmayıl Hacıyev onun haqqında analitik, dürüst, dolğun və müqayisəli zəngin mənbələrlə yazmasın, həmin mənbələri zərgər dəqiqliyi ilə araşdırmasın və bu baxımdan, İsmayıl müəllimin bütün tədqiqatları tarix elmimizə böyük töhfədir.

Tədbirin davamında "Akademik İsmayıl Hacıyev" adlı elektron sərgi təqdim edilib.

Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki daimi nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov İsmayıl Hacıyevin timsalında Azərbaycanda sadəlik, insanlıq nümunəsi olduğunu qeyd edib, daimi nümayəndəlik adından İsmayıl müəllimə gələcək fəaliyyətində daha böyük uğurlar arzulayıb.

AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnoqrafiya İnstitutunun direktoru, professor Kərim Şükürov qeyd edib ki, İsmayıl Hacıyev yetişdiyi tarixi mühitin təsiri ilə müasir tarixçiliyin zirvəsinə çatıb. Naxçıvan tarixinin fərqliliyindən bəhs edən professor bu sahədə yeni və fundamental əsərlər yazdığına görə İsmayıl Hacıyevə minnətdarlığını bildirib.

Milli Məclisin Komitə sədri Fazil Mustafa, BDU-nun Tarix fakültəsinin dekanı İbrahim Zeynalov, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun direktoru akademik Teymur Kərimli, tarix elmləri doktoru Abbas Seyidov, "Şərq qapısı" qəzetinin baş redaktoru Sara Əzimova, AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktor müavini, tarix elmləri doktoru Eynulla Mədətli, Əməkdar jurnalist Tahir Aydınoğlu akademikin həm elmi yaradıcılığından, həm də ölkənin ictimai-siyasi həyatında fəal iştirakından danışıblar. Ailə üzvləri, dostları, tələbə və iş yoldaşları isə xoş xatirələrini bölüşərək İsmayıl Hacıyevə möhkəm cansağlığı, yeni uğurlar, elmimizi zənginləşdirmək yolunda daimi fəaliyyət arzu ediblər.

Tədbirin sonunda çıxış edən akademik İsmayıl Hacıyev tədbirin yüksək səviyyədə təşkilinə görə doğma məbədgah olan Milli Kitabxananın rəhbərliyinə, peşəkar kollektivinə və bütün tədbir iştirakçılarına təşəkkürünü bildirib.

## Elektron diplom sistemi vətəndaşların maliyyə yükünü azaldacaq

***Təhsil sahəsində aparılan islahatlar tədris prosesinin keyfiyyəti ilə yanaşı, eyni zamanda sənədləşmə və idarəetmə mexanizmlərinin müasirləşdirilməsinə də yönəlib. Son dövrlərdə cəmiyyətin diqqət mərkəzində olan məsələlərdən biri də ali və orta ixtisas təhsili haqqında sənədlərin, diplomların elektron formata keçirilməsidir. Bu dəyişikliklər həm vətəndaşların vaxt və vəsaitinə qənaət edir, həm də təhsil sistemində şəffaflığın artırılmasına xidmət edir. Mövzu ilə bağlı suallarımızı NDU-nun Tədrisin təşkili şöbəsinin müdir müavini Anar Tarverdiyev cavablandırdı.***

***– Anar müəllim, diplomların yalnız elektron formada təqdim edilməsi təhsil sistemində hansı problemləri aradan qaldıracaq?***

– Diplomların elektronlaşdırılması təhsil sənədlərinin verilməsi prosesində uzun illərdir, mövcud olan bir sıra çətinlikləri aradan qaldıracaq. İlk növbədə, bu addım sənədləşmədə şəffaflığın artırılmasına xidmət edir. Kağız daşıyıcıda verilən diplomların hazırlanması, saxlanılması və təqdim edilməsi zamanı müəyyən gecikmələr, texniki problemlər və insan faktorundan asılı risklər yaranırdı. Elektron sistem isə bu kimi halları minimuma endirir.

Digər mühüm məsələ prosedur qaydalarının sadələşdirilməsidir. Əvvəllər məzun diplomunu əldə etmək üçün ali təhsil müəssisəsinə müraciət etməli, bəzən uzun növbələrdə gözləməli olurdu. Xüsusilə regionlarda yaşayan vətəndaşlar üçün bu proses əlavə vaxt və xərc tələb edirdi. Elektron diplom sistemi vasitəsilə vətəndaş istənilən vaxt öz şəxsi kabinetinə daxil olaraq diplomuna çıxış əldə edə, onu elektron şəkildə istifadə edə və ya çap edə bilər.

Bundan əlavə, diplom əlavələrinin, yəni qiymət cədvəllərinin də elektron formada təqdim edilməsi sənədlərin vaxtında və daha operativ şəkildə əldə olunmasına imkan yaradır. Ümumilikdə, bu dəyişiklik təhsil sisteminin daha çevik, müasir və vətəndaş yönümlü olmasına xidmət edir.

***– Bu o deməkdir ki, elektron diplom sisteminə keçidlə kağız diplomların verilməsinə tamamilə son qoyulurmu?***

– Bəli, mərhələli şəkildə kağız diplomların verilməsinə son qoyulması nəzərdə tutulur. Yeni məzun olan şəxslər artıq diplomlarını yalnız elektron formada əldə edəcəklər. Bu isə həm ekoloji baxımdan, həm də idarətmə baxımından daha səmərəli hesab olunur. Kağız israfının azalması, arxiv yükünün minimuma endirilməsi və sənədlərin uzunmüddətli qorunması baxımından elektron sistem daha etibarlıdır.

***– Bəs əvvəllər verilmiş kağız diplomların hüquqi qüvvəsi necə tənzimlənəcək?***

– Bu cəmiyyət üçün xüsusi əhəmiyyət daşıyan sualdır və qeyd etməliyəm ki, əvvəl vətəndaşlara təqdim edilmiş kağız diplomlar heç bir halda hüquqi qüvvəsini itirmir. Onlar əvvəlki kimi tam etibarlı sənəd hesab olunur və bütün rəsmi prosedurlarda istifadə edilə bilər.

Lakin kağız diplomun itirilməsi, məhv olması və ya zədələnməsi hallarında artıq əvvəlki kimi uzun və çətin prosedurlara ehtiyac qalmayacaq. Belə vəziyyətlərdə vətəndaş sistem üzərindən müraciət edərək dublikat elektron diplom əldə edə biləcək. Bu elektron diplom da tam hüquqi qüvvəyə malik olacaq və bütün qurumlar tərəfindən tanınacaq.

***– Elektron diplomların təhlükəsizliyi necə təmin olunacaq?***

– Elektron diplomların təhlükəsizliyi məsələsi sistemin əsas prioritetlərindən biridir. Diplomlar müasir informasiya texnologiyalarına əsaslanan, yüksək təhlükəsizlik standartlarına cavab verən platformada saxlanılacaq. Hər bir diplom fərdi identifikasiya mexanizmləri ilə qorunur və yalnız sahibinin şəxsi kabineti vasitəsilə əldə edilə bilir.

Bundan əlavə, elektron hökumət sistemi üzərindən diplomların yoxlanılması mümkün olacaq. Bu da üçüncü şəxslərin sənədlərə müdaxilə etməsinin qarşısını alır. Sistem daimi olaraq nəzarətdə saxlanılır və kibertəhlükəsizlik tədbirləri mütəmadi şəkildə gücləndirilir.

***– İşə qəbul zamanı elektron diplomlar bütün qurumlar tərəfindən tanınacaqmı?***

– Tam şəkildə tanınacaq. Hazırda bütün dövlət qurumları elektron hökumət sisteminə inteqrasiya olunub. Bu isə o deməkdir ki, işə qəbul prosesində işəgötürən qurumlar namizədin diplomunu birbaşa sistem üzərindən yoxlaya biləcəklər.




Bu mexanizm həm işəgötürənlər, həm də işaxtaranlar üçün böyük rahatlıq yaradır. Namizəd əlavə sənəd təqdim etmədən diplomunun doğruluğunu sübut edə bilir. Eyni zamanda bu sistem özəl sektor üçün də etibarlı məlumat mənbəyi rolunu oynayır.

***– Elektron diplomların saxtalaşdırılmasının qarşısı hansı mexanizmlərlə alınacaq?***

– Təəssüf ki, əvvəlki illərdə kağız diplomların saxtalaşdırılması halları ilə rastlaşırdıq. Elektron diplom sistemi isə bu riskləri faktiki olaraq aradan qaldırır. Çünki hər bir diplom mərkəzləşdirilmiş bazada saxlanılır və yalnız rəsmi sistem üzərindən təsdiqlənir.

Elektron hökumət portalı bu prosesdə bilavasitə rol oynayır. Saxta sənəd təqdim etmək imkanları minimuma endirilir, çünki diplomun mövcudluğu və məzmunu real vaxt rejimində yoxlanılır. Bu da həm təhsil sisteminin nüfuzunu qoruyur, həm də əmək bazarında ədalətli rəqabət mühitinin formalaşmasına şərait yaradır.

***– Bu sistemin tətbiqi vətəndaşlar üçün əlavə maliyyə yükü yaradacaqmı?***

– Xeyr, əksinə, elektron diplom sistemi vətəndaşların maliyyə yükünü azaldacaq. Əvvəllər, xüsusilə ucqar bölgələrdə yaşayan vətəndaşlar diplom almaq üçün ali təhsil müəssisəsinə gəlməli, yol və digər xərclər çəkməli olurdular. Bəzi hallarda bu proses onların qanuni nümayəndələri üçün də əlavə xərc yaradırdı.

Artıq bütün bu çətinliklər aradan qalxır. Vətəndaşlar heç bir əlavə ödəniş etmədən, evdən çıxmadan diplomlarını əldə edə biləcəklər. Bu isə sosial baxımdan da mühüm addımdır və təhsil xidmətlərinin hər kəs üçün əlçatanlığını təmin edir.

***– Son olaraq elektron diplom sisteminin gələcək perspektivləri sizcə nələrdir?***

– Hesab edirəm ki, bu sistem təhsil sahəsində rəqəmsallaşmanın ən mühüm mərhələlərindən biridir. Gələcəkdə digər təhsil sənədlərinin də elektron formata keçirilməsi, beynəlxalq sistemlərlə inteqrasiyanın gücləndirilməsi və məlumat mübadiləsinin daha da sürətləndirilməsi mümkündür. Bu dəyişikliklər Azərbaycan təhsilinin beynəlxalq standartlara uyğunlaşmasına və rəqabət qabiliyyətinin artmasına mühüm töhfə verəcək.

Elnurə CƏFƏROVA

## Magistraturaya qəbulda esse yazısı ilə bağlı yeni tələb tətbiq olunur




2026-cı il üzrə magistratura səviyyəsinə qəbul imtahanında esse yazısı ilə bağlı dəyişiklik edilib. Əvvəlki illərdə esse yazısı bütün ixtisaslar üzrə məcburi tələb olunmasa da, cari ildən etibarən tədrisi ingilis və ya alman dilində aparılan ixtisaslara müraciət edən namizədlər üçün esse tapşırığı üzrə nəticə 2 baldan az olmamalıdır. Tədris Azərbaycan və ya rus dilində olan ixtisaslaşmaları seçmək üçün yazı işi (esse) tapşırığı üzrə nəticəyə bal məhdudiyyəti qoyulmur. Mövzuyla bağlı Dövlət İmtahan Mərkəzinin Naxçıvan regional bölməsinin müdiri Sabir Məmmədovla həmsöhbət olduq. Onun sözlərinə görə, bu qərar namizədlərin xarici dil üzrə biliklərini yalnız test formasında deyil, eyni zamanda yazılı şəkildə ifadə etmək bacarıqlarını da qiymətləndirmək məqsədi daşıyır.

Bildirilib ki, magistratura səviyyəsində xarici dildə təhsil alan tələbələrin akademik yazı bacarıqları xüsusi əhəmiyyət kəsb edir və yeni tələbin tətbiqi beynəlxalq təhsil standartlarına uyğunluğun təmin edilməsinə xidmət edir.

Qeyd edək ki, magistraturaya qəbul imtahanının birinci cəhdi 2026-cı il fevralın 15-də keçiriləcək. İmtahan zamanı bakalavrların məntiqi təfəkkürü, informatika üzrə bilikləri və xarici dil bacarıqları yoxlanılacaq. Xarici dil bloku çərçivəsində test tapşırıqları ilə yanaşı, namizədlərə esse yazmaq üçün mövzu təqdim olunacaq. Qiymətləndirmə zamanı test tapşırıqlarında hər düzgün cavab 1 balla qiymətləndirilir və səhv cavablar ümumi nəticəyə təsir göstərmir. Esse yazısı maksimum 5 balla dəyərləndirilir. Ümumilikdə, imtahanda toplana bilən maksimal nəticə 100 bal təşkil edir. İmtahanın test mərhələsinə 3 saat vaxt ayrılır. Bu mərhələdən sonra cavab kartları yığılır və namizədlərə esse yazısı üçün xüsusi vərəqlər paylanılır. Yazı işinin yerinə yetirilməsi üçün isə əlavə olaraq 30 dəqiqə vaxt verilir.

Dövlət İmtahan Mərkəzinin müdiri vurğulayıb ki, esse yazısının məcburi tələblər sırasına daxil edilməsi magistratura təhsilinə qəbul prosesində daha obyektiv və əhatəli qiymətləndirmənin aparılmasına imkan yaradacaq.

# Dəm qazı təhlükəsinin qarşısının alınması vətəndaşların təhlükəsizlik qaydalarına əməl etməsindən asılıdır

***Naxçıvanda iki nəfərin ölümünə səbəb olan dəm qazından zəhərlənmə hadisəsi bir daha bu təhlükənin nə qədər ciddi və həyati risk daşıdığını gündəmə gətirdi. Təəssüf ki, bu cür hallara, xüsusilə qış mövsümündə daha tez-tez rast gəlinir və bir çox hallarda bu, ehtiyatsızlıq, maarifləndirmənin yetərsizliyi səbəbindən ağır nəticələrə yol açır. Vətəndaşların təhlükəsizliyinin təmin olunması, dəm qazı zəhərlənmələrinin qarşısının alınması yolları və bu kimi hadisələr zamanı düzgün davranış qaydaları ilə bağlı Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Fövqəladə halların xəbərdar edilməsi şöbəsinin rəisi, daxili xidmət polkovnik-leytenantı Mirtaleh Seyidov ilə həmsöhbət olduq.***

Müsahibə zamanı mütəxəssis bildirdi ki, qış aylarında təbii qaza olan tələbat daha da artır və istifadə qaydalarına, təhlükəsizlik hallarına ciddi riayət olunmur: "Məişətdə yaranan bu hadisələrin böyük qismi ehtiyatsızlıq və diqqətsizlik səbəbi ilə yaranır. Biz də nazirlik olaraq bu hallar barədə daha geniş maarifləndirmə, profilaktik tədbirlər həyata keçiririk. Qış aylarında bu "səssiz ölüm" anlayışı daha geniş yayılır. Bunun da səbəbi yaşayış evlərində müxtəlif qaz cihazlarından, avadanlıqlarından istifadə zamanı havalandırmanın düzgün getməməsi, nəticədə, dəm qazından zəhərlənmələrin meydana çıxmasıdır. Hava təchizatının zəif olması, havalandırmanın düzgün təşkil edilməməsi dəm qazı ilə zəhərlənmə hallarına səbəb ola bilər. Dəm qazından qorunmaq üçün hər kəs bu barədə məlumatlı olmalı, davranış və təhlükəsizlik qaydalarını mükəmməl bilməli və onlara ciddi şəkildə əməl etməlidir".

Mirtaleh müəllim qeyd etdi ki, fövqəladə hallar xidməti tərəfindən payız-qış mövsümünə hazırlıq tədbirləri həyata keçirilib, hazırda bu istiqamətdə bir sıra zəruri işlər də davam etdirilir: "İlk növbədə, aidiyyəti qurumlar tərəfindən müəssisə və idarələrdə, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında seminarlar və müşavirələr keçirilib. Məqsəd qış mövsümü dövründə baş verə biləcək hadisələrə hazırlıq və onların qarşısının alınması üçün görüləcək tədbirləri müəyyən etməkdir. Bundan əlavə, aidiyyəti qurumlar tərəfindən inzibati binalarda, ictimai yaşayış binalarının qızdırılmasında istifadə olunan qaz xətləri və texniki avadanlıqlarda, eləcə də yanğın təhlükəsizliyi qaydalarına riayət olunması məqsədilə baxışlar və monitorinqlər təşkil olunub. Qeyd etmək lazımdır ki, müəssisə və təşkilatların balansında olan qazanxanaların köçürülməsi istiqamətində də hazırlıq işləri aparılıb. Bu günə qədər Təhsil Nazirliyinin balansında olan uşaq bağçalarında, eləcə də digər təhsil müəssisələrində bu proses davamlı şəkildə həyata keçirilir və davam etdirilir. Zirzəmidə yerləşən qazanxanalar çıxarılaraq təhlükəsiz şəraitdə yeni, müasir istilik sistemləri ilə əvəzlənir".




Müsahibimiz qeyd edib ki, hamam otaqlarında qazla işləyən su qızdırıcıları mövcuddursa, onların təhlükəsiz yerlərə köçürülməsi və ya çıxarılması təmin edilməlidir: "Anbar otaqlarında və digər qapalı məkanlarda qazla işləyən su qızdırıcılarının quraşdırılması qanunla qadağan edilmişdir. Təəssüf ki, bəzi vətəndaşlar bu qaydalardan xəbərsiz ola bilirlər. Mətbəxlərdə, açıq balkonlarda və ya digər uyğun məkanlarda belə cihazlardan istifadə edilə bilər, lakin mütləq havalandırma sistemləri təmin olunmalıdır. Son baş verən hadisələr göstərir ki, dəm qazı zəhərlənmələrinin əsas səbəbi məlumatsızlıq, təhlükəsizlik qaydalarına əməl olunmaması və fərdi məsuliyyətsizlikdir".

Mirtaleh Seyidov ötən il dəm qazı ilə bağlı ölüm hadisələrinin baş verməsi haqqında məlumat verərək bildirib ki, geridə qoyduğumuz ildə 4 ölüm faktı qeydə alınıb: "2026-cı ilin ilk günləri ərzində də artıq bir faciəvi hadisə baş verib. Naxçıvan şəhərində baş verən hadisə bir daha göstərir ki, hər bir vətəndaş təhlükəsizlik qaydalarına ciddi əməl etməli, qazdan istifadə zamanı diqqətli olmalı və maarifləndirici tədbirlərdən faydalanmalıdır. Belə halların qarşısını almaq üçün hər bir evdə məişət qaz cihazı quraşdırılarkən mütləq mütəxəssisin fikri alınmalı və quraşdırma yalnız ixtisaslı şəxslər tərəfindən həyata keçirilməlidir. Bundan əlavə, bu cihazlar ildə ən azı iki-üç dəfə monitorinq və profilaktik baxışdan keçirilməlidir. Bu hər bir vətəndaşın fərdi məsuliyyətidir və təhlükəsizliyin təmin edilməsində əsas rol oynayır".

Ev şəraitində qaz cihazlarına istər qaz filtrləri, istərsə də qaz sobalarına daim diqqət yetirilməlidir. İçəridə yaranan dəm qazını görmək və vaxtında müəyyən etmək çətindir, çünki nəzarətsiz qalan cihazlar ölüm və ya partlayış təhlükəsi yarada bilər. Hər bir insan dəm qazından zəhərlənmənin əlamətlərini və profilaktikasını, həmçinin zəhərlənmiş insana ilkin yardım göstərmə qaydalarını bilməlidir. Çox vaxt insanlar buna riayət etmir və düzgün ilkin yardım göstərilmədiyi üçün vəziyyət ölümə qədər ağırlaşa bilir.

Əlavə olaraq müshibimiz qeyd edir ki, qaz cihazlarının və xətlərinin vəziyyətinə nəzarət çox önəmlidir: "Hazırda bu işlər, əsasən, qaz idarələri və qaz istismar xidməti tərəfindən həyata keçirilir. Onlar evlərdə müəyyənə və profilaktik baxışları icra edir. Nazirlik tərəfindən qış aylarında qaz təhlükəsizliyinin qorunması, qaz cihazlarının düzgün istifadəsi və yanğın təhlükəsizliyi ilə bağlı maarifləndirici vasitələr hazırlanıb. Bunlara broşürlər, yaddaş kitabçaları və bukletlər daxildir. Hazırlanmış materiallar keçirilən tədbirlərdə vətəndaşlara təqdim olunur. Hazırda təhsil müəssisələrində, səhiyyə və mədəniyyət ocaqlarında, həmçinin digər müəssisə və təşkilatlarda silsilə maarifləndirici tədbirlər həyata keçirilir. Məqsədimiz odur ki, cəmiyyətin hər bir üzvü bu məsələlər barədə məlumatlı olsun. Bu işdə, həmçinin sosial informasiya vasitələrindən geniş istifadə edilir".

Zəhra VƏLİYEVA

# Naxçıvanda təhsil müəssisələrinin istilik sistemləri binadan kənara çıxarılır



"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üzrə Dövlət Proqramı"nın icrası çərçivəsində muxtar respublika ərazisində fəaliyyət göstərən təhsil müəssisələrində istilik sistemlərinin binadan kənara çıxarılmasına başlanılıb.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyindən "Şərq qapısı"na verilən məlumata əsasən layihə Dövlət Proqramının icrası istiqamətində həyata keçirilir və məqsəd təhsil müəssisələrində istilik təhlükəsizliyinin artırılması, həmçinin müasir standartlara uyğun şəraitin yaradılmasıdır.

Ölkədə mövcud olan analoji təcrübə araşdırılıb və divar tipli qazanxanaların quraşdırılması daha məqsədəuyğun hesab edilib.

Bu məqsədlə "Besttexnik" MMC ilə müqavilə bağlanıb və artıq işlərə start verilib.

Layihənin ilkin mərhələsində nisbətən kiçikölçülü təhsil müəssisələri, eyni zamanda ucqar kəndlərdə yerləşən məktəblər seçilib. Hazırda quraşdırma işləri mərhələli şəkildə həyata keçirilir.

Cari tədris ili ərzində, ümumilikdə, 30-a yaxın təhsil müəssisəsində qazanxanaların binadan kənara çıxarılması nəzərdə tutulur. Artıq 14 təhsil müəssisəsində montaj-quraşdırma işləri tamamlanıb. Digər müəssisələrdə isə işlərin yanvar ayının sonunadək yekunlaşdırılması planlaşdırılır.



# Naxçıvan Türkistana qapı olacaq



Ramiyə ƏKBƏROVA

Yollar dünyada həsrətin başlanğıcı, vüsalın adıdır. O yollar ki insanları bir-birinə qovuşdurur. Hərənin isə gözlədiyi bir yol var. Kimisi uzaqlarda olan oğlu, qızının, kimisi atasının, anasının yolunu gözləyir. Amma yollara dikilən baxışlar təkcə insanlara aid deyil, torpaq da yol gözləyir, onun da həsrətində qaldığı əzizləri olur. İllərlə Qarabağımız da öz əzizlərinin yolunu gözlədi. Həsrətdən gözlərinə qor düşdü. Vüsalına qovuşanda bağrına basdı öz əzizlərini. Şuşanın, Laçının, Kəlbəcərin yollara dikilən gözlərinə 2020-ci ildə nur gəldi. Çünki igid oğulları öz canları ilə ona gələn yolları qarış-qarış düşməndən azad etmişdilər. Artıq beş ildir ki, yollar bizi qələbəyə aparır. Zəfər yolu doğmalarını öz əziz yurdlarına qaytarır. Addım-addım şəhid qanı ilə geri qaytarılan o yolların sonundakı günəşin şəfəqləri bütöv Azərbaycanı işıqlandırır. 30 illik intizar bitib artıq.

Bu illər ərzində gözləri yolda olan təkcə Qarabağ deyildi, qədim yurdum Naxçıvanın da gözləri yollarda idi. Düşmən təcavüzü onu da öz anasından ayırmışdı. O da 33 ildir ki, həsrətlə yol gözləyir. Həsrətli baxışları illər öncə sinəsi üstündən ötüb keçən son qatarın getdiyi yollara dikilib. Bəli, illərlə həsrətlə göylərə baxdıq biz. Son ümidimiz təyyarələrə qaldı həmin qara gündən sonra. Naxçıvana gələn qatarların, avtomobillərin qarşısını kəsən düşmən insanları əsir aldı. Talan etdi qatarları. Və həmin gündən çətin dövrü başladı Naxçıvanın. Ana Vətəndən ayrı düşən Naxçıvan düşmən hücumuna məruz qaldı, qazsız, işıqsız hətta çörəksiz oldu, amma baş əymədi düşmənə, blokadada olsa da, gözəlləşdi, müasirləşdi.

Və xalqımızın Ümummilli Liderinin, o siyasət dahisinin bütün bəlalardan xilas edərək ayağa qaldırdığı Azərbaycanı əmin əllərə təslim etdiyini təsdiqlədi. Xalqına arxalanan Müzəffər Sərkərdə dünyaya qüdrətli ordusu, yenilməz siyasi-diplomatik gücü ilə meydan oxudu. Ulu Öndərimizin əsasını qoyduğu siyasətin, nurlu yolun uğurla davam etdirilməsi bizə Vətən müharibəsində böyük qələbəni bəxş etdi, Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli ordumuz düşmənə sarsıdıcı zərbə vurdu, torpaqlarımızın ərazi bütövlüyü bərpa olundu. Azərbaycan Prezidenti Naxçıvan Muxtar Respublikasının blokadadan azad edilməsi istiqamətində çox önəmli və tarixi bir məsələnin həllini təmin edərək 2020-ci il noyabrın 10-da imzalanmış Birgə Bəyanata qədim diyarla bağlı xüsusi bir maddəni – 9-cu bəndi salmaqla önümüzdəki illərdə muxtar respublikanın beynəlxalq nəqliyyat dəhlizinə çevrilməsinə şərait yaratdı.

Zəngilandan Naxçıvana dəmir yolu xəttinin və avtomobil magistrallarının tikintisi muxtar respublikada transmilli nəqliyyat proqramlarının və layihələrinin reallaşdırılmasına şərait yaradacaqdır ki, bu da qədim diyarın geostrateji əhəmiyyətini daha da artırmaqla yanaşı, bir sıra mühüm məsələlərdə böyük nailiyyətlər qazanmağa şərait yaradacaqdır. Belə ki, Zəngəzur dəhlizinin açılması ilə Naxçıvan həm də bizim üçün Avropaya qapı, Türk dünyası üçün isə ümid bağına çevriləcək.

1923-cü ildə Mustafa Kamal Atatürkə *"Paşam Naxçıvan barədə niyə bu qədər dönməz və qətiyyətlisiniz"* sualı veriləndə Atatürk demişdir: ***"Çünki əminəm ki, Azərbaycan bir gün haqqı olan müstəqilliyi yenidən qazanacaq və Naxçıvan Türkiyəni Azərbaycanla bağlayacaq, Türkistana qapı olacaq".*** Həmin gün elə bu gündür. Bəli, Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürkün dediyi həmin günə az qalıb. Vətən müharibəsindən sonra qazanılan zəfərin sayəsində Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan əzəli torpağımız olan Zəngəzur dəhlizi vasitəsi ilə Türk dünyasına açılan qapı, türk respublikalarını bir-birinə birləşdirən körpü olacaq. Ümidlərin, xəyalların gerçəyə döndüyü körpü.

Naxçıvan Muxtar Respublikası ölkəmiz üçün, ümumilikdə, bütün Türk dünyası üçün çox böyük geostrateji əhəmiyyətə malik mühüm məkandır. Təsadüfi deyil ki, dahi şəxsiyyət Ümummilli Liderimizin düşünülmüş və uzaqgörən siyasətində də bu amil həmişə üstün yer tutub, müdrik dövlət xadimi siyasi fəaliyyətinin ayrı-ayrı dövrlərində həmişə Naxçıvanın təhlükəsizliyinin möhkəmlənməsinə və dayanıqlı inkişafına xüsusi diqqət və qayğı göstərib. Bu gün Ulu Öndərimizin işıqlı yolu Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən böyük nailiyyətlərlə davam etdirilir. Bu isə bir daha deməyə əsas verir ki, Naxçıvan bundan sonra da inkişafı ilə yeni-yeni zirvələr fəth edəcək.

# Mən yenidən susuram, amma daşlar hələ danışmağa davam edir

*"Şəhərsalma və Memarlıq İli"*



✍ Rafiq TƏHMƏZ

Salam, Azərbaycan yurdunun əzmkar mirasçıları... Mən memar Əcəmi Əbubəkr oğlu Naxçıvani. Daşla danışan, kərpiclə dua edən, təkcə onları inşa etməyib, eyni zamanda onlara ruh üfürən memar. Bilirəm, bu torpağın tarixi mirası sizin əllərinizdədir. Zənn etməyin ki, bu gün lal-dinməz susub, sadəcə, heykəl kimi dayanmışam. Mən hələ də heykəlimin sükutu içindən danışır, Naxçıvanın daş yaddaşından, zamanın üzərinə hopmuş ornamentlərin arasından sizlərə baxıram.

Bu il "Şəhərsalma və Memarlıq İli"dir... Demək ki, artıq 900 yaşlı memar bu gündə dinib danışmasa, əbədi olaraq susmalıdır. Bu il daşlar yenidən oxunmalı, hər bir kərpic izi isə bir daha xatırlanmalıdır. Axı Azərbaycan torpağı zamanın tozuna bürünmüş abidələri yenidən ayağa qaldırıb bizlərə bəxş edən bir diyardır. Ötən il baxışlarım Möminə xatun türbəsinin üzərinə daha diqqətlə əyildi. O türbə ki mən onu təkbaşına düşünmüş, təkbaşına ölçmüş, təkbaşına inşa etmişdim. O türbə ki qadının adını göylərə yazmaq üçün daşdan səma qurmuşdum. Bu gün dünyanın dörd bir yanından gələn alimlərin, memarların, bərpaçıların həmin layihənin ətrafına toplaşıb onu yaşatmağa çalışması mənim üçün bir memarın ala biləcəyi ən böyük ehtiramdır. Çünki memarlıq zamanla mübahisə deyil, zamanla barışıqdır.

Amma Yusif Küseyroğlu türbəsi… O, Naxçıvanın bir küçəsində tənhadır. Küçənin səs-küyü içində sükutunu qoruyur. Sanki özü-özünə pıçıldayır: "Məni görən varmı?" Halbuki o da bir dövrün möhürüdür, bir yaddaşın qapısıdır. Biz axı bu abidələri, ölülər üçün deyil, dirilərin xatırlaması üçün yaratdıq.

Naxçıvana baxanda təkcə Azərbaycan milli ornamentlərini görməyin. Burada daşlar çoxdilli danışır. Amma bütün bu müxtəliflik Naxçıvan-Marağa memarlıq məktəbinin süzgəcindən keçib, öz yerini tapıb. Bu torpaq yad təsirləri udub, onları öz ruhuna uyğunlaşdırmağı bacarıb. Elə buna görə də Naxçıvan memarlığı tək bir xalqın deyil, çox mədəniyyətin izlərini daşıyan vahid bir simadır.

Culfanın səssiz, amma vüqarlı Gülüstan türbəsi, Qarabağlar kəndində qadının şərəfinə ucaldılmış nadir memarlıq etirafı olan türbə Hülakü xanın yoldaşının adına hörmət, daşla yazılmış ehtiram. Qoşa minarələr sanki səmanı iki tərəfdən qucaqlayır. Nəhayət, Əlincə qala… Əmir Teymur kimi yenilməz bir sərkərdəni bitkin salan məğrur qala. Qala deyil, iradədir Əlincə. Naxçıvan memarlığının güzgüdəki əksidir, sınmayan, əyilməyən əksi...

İnsanlığın yenidən başlamasının əsas səbəbkarı olan Nuh Peyğəmbərin məzarı üzərində ucalan türbə və düşüncənin, sözün, inancın daşlaşmış forması, Hürufilik məktəbinin böyük ustadı Fəzlullah Nəiminin məzar üstü abidəsi... Bunların hamısı bir torpağın yaddaşıdır. Məndən soruşsalar, deyərdim ki, nəinki Naxçıvan diyarı, ümumilikdə, Vətənin hər qarış torpağındakı tikili Azərbaycan adlı xalça üzərindəki ən gözəl ilmələrdir. Qarabağda Arğalı türbəsi, Şuşa qalası… Vaxtilə güllələr arasında yatan sənətkar məzarları, viran qoyulmuş, sonra yenidən canlandırılan ev-muzeyləri… Qacara baş əyməyən qocaman şair Vaqifin, Xan qızı Natəvanın, Çəmənzəminlinin, Üzeyir bəyin uşaq vaxtından boy atdığı ata-baba evlərinin bu gün azad nəfəs alması, daşın da sevinə bildiyinin sübutudur.

Quruluşu və tikiliş üslubu pozulmadan yenidən qurulan muzeylər, bərpa olunan abidələrdən başqa mənim kimi qoca memarı nə sevindirə bilər ki? Mən hər tikilimin ilk və son kərpicinə əl atarkən Allahın adı ilə başlamış, Allahın adı ilə bitirmişəm.







Azərbaycan memarlığı da elə həmin müqəddəs kərpiclər kimi biri-birinə bağlıdır. Qarabağlar türbəsindəki qoşa minarə sanki Qarabağ torpağındakı Aşağı və Yuxarı Gövhər Ağa məscidlərinə səslənir. Oradakı sərdabə Bərdə türbəsinin qardaşıdır.

Mən daşla danışmışam, amma sözüm bu gün də yaşayır. Çünki memarlıq bu millətin sükut içində danışan tarixidir. Mən isə bu tarixin ilk cümlələrindən biriyəm. Və indi sözümü sizə əmanət edib sizinlə sağollaşıram... Daşlara baxanda yalnız daş görməyin, orada insan nəfəsini, zaman izini, dua səsini oxuyun. Abidəni qorumaq keçmişi saxlamaq deyil, gələcəyi ucaltmaqdır. Əgər bir gün yolunuz bir türbənin kölgəsindən, bir qalanın sinəsindən keçərsə, bilin ki, mən və mənim kimi memarların nəfəsi yenə oradadır. Kərpiclərin arasından sizə baxarıq. Bir memar xalqının öz daş yaddaşını yaşatdıqca zaman da onun qarşısında, sözsüz ki, baş əyər. Mən yenidən susuram, amma unutmayın ki, daşlar hələ danışmağa davam edir...



# Qloballaşma dövründə ana dilinin qorunması:

## “Azərbaycan mədəniyyəti – 2040” hansı perspektivləri və imkanları təqdim edir

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 14 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Mədəniyyəti – 2040” Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyasının qısa xülasəsində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Azərbaycançılıq məfkurəsi əsasında yeni milli ideologiyanın və buna əsaslanan yeni mədəniyyət siyasətinin formalaşdırılması izah olunur.

Konsepsiyanın əsas məqsədi belə şərtləndirilir: *“Azərbaycan mədəniyyəti-2040” Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası qlobal və ölkədaxili çağırışlar nəzərə alınmaqla Azərbaycanın milli kimliyinə əsaslanan müasir mədəniyyət modelinin yaradılması, inkişafı və 2040-cı ilədək digər mədəniyyətlərlə qarşılıqlı əlaqələrinin genişləndirilməsi üçün dövlət mədəniyyət siyasətinin istiqamətlərini müəyyən edən və mədəniyyət sahəsi ilə bağlı fəaliyyətə vahid, sistemli və dayanıqlı yanaşmanı təmin edən strateji planlaşdırma sənədidir”.*

Azərbaycan dili xalqımızın milli kimliyinin, tarixi yaddaşının və mədəni irsinin əsas sütunlarından biridir. Müstəqil Azərbaycan Respublikasında dövlət dili kimi Azərbaycan dilinin qorunması, inkişaf etdirilməsi və cəmiyyətin bütün sahələrində düzgün istifadəsinin təmin olunması dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Bu baxımdan, “Azərbaycan mədəniyyəti-2040” strateji baxış sənədində Azərbaycan dili məsələsinə xüsusi yer ayrılmışdır. Bu sənədin 2-ci bəndində Azərbaycan dili ilə bağlı çağırışlar: Azərbaycan dilinin inkişafı, o cümlədən beynəlxalq aləmdə təbliği və təşviqi ilə bağlı əlaqələndirilmiş fəaliyyətin həyata keçirilməsi, Azərbaycan dilində elmi, elmi-publisistik və bədii əsərlərin sayının və keyfiyyətinin artırılması və digər məsələlər yer alıb. Konsepsiyanın 8.2-ci bölməsi Azərbaycan dilinin inkişafı ilə bağlıdır. Mövzu ilə bağlı suallarımızı AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, dosent Zülfiyyə İsmayıla ünvanladıq.

***– Qloballaşma və rəqəmsallaşma şəraitində Azərbaycan dilinin funksionallığının artırılması dövlət siyasətinin prioritet istiqamətlərindən biri hesab olunur və hazırlanmış bu Konsepsiya dilin funksionallığını gücləndirməyi necə hədəfləyir?***

– Azərbaycan dili milli kimliyimizin, mədəni irsimizin və dövlətçilik ənənələrimizin əsas dayaqlarından biridir. Müasir dövrdə qloballaşma, rəqəmsallaşma və informasiya mühitinin sürətli inkişafı dil siyasətinin daha sistemli, məqsədyönlü və davamlı şəkildə həyata keçirilməsini zəruri edir. Bu baxımdan, Azərbaycan dilinin funksionallığının artırılması, elmi əsaslarla inkişaf etdirilməsi, təbliği və təşviqi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir.

Konsepsiyada Azərbaycan ədəbi dilinin bədii, elmi, publisistik, rəsmi-işgüzar və məişət üslublarında funksional imkanlarının genişləndirilməsi mühüm prioritet hesab olunur. Bu məqsədlə müvafiq dövlət qurumları tərəfindən üslubların elmi əsaslarla araşdırılması, dilin müxtəlif sahələrdə tətbiq imkanlarının təhlili, təhsil müəssisələrində ədəbi dil bacarıqlarının sistemli şəkildə tədrisi istiqamətində tədbirlər həyata keçiriləcəkdir. Ümumi təhsil müəssisələrinin Azərbaycan dili dərsliklərində ədəbi dilin funksionallığına dair bilik və bacarıqların şagirdlərə ardıcıl şəkildə aşılanması gənc nəslin dil mədəniyyətinin formalaşmasına xidmət edəcəkdir.

Azərbaycan dilinin tarixi, məzmunu və mədəniyyətin inkişafındakı rolu ilə bağlı elmi tədqiqatların genişləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Müasir elmi metodların tətbiqi ilə aparılan araşdırmalar Azərbaycan dilinə dair elmi əsərlərin sayının artmasına, tədqiqatların keyfiyyətinin yüksəlməsinə, lüğət ehtiyatının zənginləşdirilməsinə, dilin istifadə arealının genişlənməsinə şərait yaradacaqdır. Bu tədqiqatların nəticələrinin “e-culture” platformasında, nüfuzlu elmi jurnallarda və mediada yayımlanması, həmçinin ictimai müzakirələrə çıxarılması dil siyasətinin şəffaflığını və effektivliyini artıracaqdır. Azərbaycan dilində, xüsusilə elmi və publisistik sahədə yeni əsərlərin yaranması və yayılması dilin inkişafında mühüm rol oynayır. Yerli və xarici elm və təhsil müəssisələri ilə dayanıqlı əməkdaşlığın qurulması keyfiyyətli elmi əsərlərin təşviqinə, Azərbaycan dilində yazılmış materialların beynəlxalq səviyyədə tanıdılmasına, milli elmi potensialın gücləndirilməsinə xidmət edəcəkdir.



***“Azərbaycan mədəniyyəti-2040” Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası qlobal və ölkədaxili çağırışlar nəzərə alınmaqla Azərbaycanın milli kimliyinə əsaslanan müasir mədəniyyət modelinin yaradılması, inkişafı və 2040-cı ilədək digər mədəniyyətlərlə qarşılıqlı əlaqələrinin genişləndirilməsi üçün dövlət mədəniyyət siyasətinin istiqamətlərini müəyyən edən və mədəniyyət sahəsi ilə bağlı fəaliyyətə vahid, sistemli və dayanıqlı yanaşmanı təmin edən strateji planlaşdırma sənədidir”.***

***– Azərbaycan dilinin lüğət ehtiyatının zənginləşdirilməsi və dil normalarının təkmilləşdirilməsi istiqamətində aparılan işlər ictimai və rəqəmsal mühitdə dilin düzgün istifadəsinə nə dərəcədə təsir göstərə biləcək?***

– Azərbaycan dilinin ictimai və rəqəmsal mühitdə istifadəsinin genişləndirilməsi dil siyasətinin əsas hədəflərindən biridir. Maarifləndirmə mexanizmlərinin hazırlanması və tətbiqi vasitəsilə Azərbaycan dilindən düzgün və səmərəli istifadə təşviq ediləcək, dil mədəniyyəti üzrə ictimai məsuliyyət artırılacaq, rəqəmsal mühitdə ana dilinin mövqeyi möhkəmləndiriləcəkdir. Bu istiqamətdə həyata keçirilən tədbirlər Azərbaycan dilinin gündəlik həyatın bütün sahələrində aparıcı mövqedə olmasını təmin edəcəkdir. Uzun illərdir, bu sahədə çalışan tədqiqatçı-alim kimi qeyd edim ki, konsepsiyada nəzərdə tutulan Azərbaycan dilinin lüğət ehtiyatının zənginləşdirilməsi, dialektlərin sinxron və diaxron tədqiqi, dil normalarının təkmilləşdirilməsi istiqamətində aparılan işlər dilin elmi əsaslarla inkişafını təmin edəcəkdir.

Bu proses yeni terminlərin formalaşdırılmasına, dil normalarının təkmilləşdirilməsinə, ictimai məlumatlılığın artırılmasına xidmət edəcəkdir. Tərcümə lüğətlərinin hazırlanması məsələsi də konsepsiyanın əsas istiqamətlərindən biridir. Azərbaycan dilindən BMT-nin əsas dillərinə, türk dillərinə və əksinə, tərcümə lüğətlərinin hazırlanması dilin beynəlxalq kommunikasiya imkanlarını genişləndirəcəkdir. Mütəxəssis qruplarının formalaşdırılması və təşkilati işlərin həyata keçirilməsi nəticəsində keyfiyyətli tərcümə lüğətləri hazırlanacaq, bu lüğətlər geniş ictimaiyyət üçün əlçatan olacaqdır. Bu təşəbbüs Azərbaycan dilinin beynəlxalq nüfuzunun artmasına mühüm töhfə verəcəkdir. Yeri gəlmişkən əlavə edək ki, Azərbaycan dilinin rəqəmsal resursları “Azərbaycan dili” platforması Azərbaycanda rəsmi olaraq 28 dekabr 2025-ci il tarixində təqdim edildi. Təqdimat mərasimi həmin gün Azərbaycan Dillər Universitetində keçirildi və platforma bu tarixdə ictimaiyyətə tanıdıldı.

Son illərdə Azərbaycan dilinin qorunması, inkişafı və gənc nəsil arasında daha geniş yayılması istiqamətində həyata keçirilən təşəbbüslər arasında “Azərbaycan dili” platforması xüsusi yer tutur. Bu platformanın formalaşmasında və fəaliyyətə başlamasında gənc təşəbbüskar Aleyna Əliyevanın rolu diqqətəlayiqdir. O, Azərbaycan dilinə marağın artırılması, ana dilinin düzgün və səlis şəkildə istifadəsinin təşviqi məqsədilə platformanın yaradılması ideyasını irəli sürmüşdür. Onun əsas məqsədi dilimizin zənginliyini, ifadə imkanlarını və milli-mənəvi dəyərlərimizi müasir informasiya mühitində daha geniş auditoriyaya çatdırmaq olmuşdur.

Dil texnologiyalarının effektivliyi mövcud dil resurslarının keyfiyyəti və sistemliliyindən asılıdır. Azərbaycan dili üçün elektron lüğətlər, onlayn media mətnləri, tədris platformaları və məhdud həcmdə dil korpusları mövcuddur. Filoloji baxımdan aşağıdakı problemlər müşahidə olunur:

*– orfoqrafik və terminoloji qeyri-sabitlik;*

*– rəqəmsal mühitdə nəzarətsiz alınma sözlərin artması;*

*– klassik və müasir ədəbi mətnlərin yetərli səviyyədə rəqəmsallaşdırılmaması.*

Bu səbəbdən dilçi alimlərin rəhbərliyi ilə balanslaşdırılmış və normativ korpusların yaradılması zəruridir.

***– Azərbaycan dilinin qorunması və inkişafı sahəsində 2026-2040-cı illər üçün hazırlanmış strategiyanın uğuru, əsasən, nəyə bağlıdır?***

– Konsepsiyanın əsas hədəflərindən biri də dil normalarına nəzarətin gücləndirilməsi məsələsidir. Azərbaycan dili haqqında normativ-hüquqi aktlara və dil normalarına əməl olunmasına nəzarətin effektivliyinin artırılması vacib məsələdir. Bu məqsədlə təhlillər aparılacaq, səmərəli nəzarət mexanizmləri hazırlanacaq, aidiyyəti qurumlara müvafiq təkliflər təqdim ediləcəkdir. Belə ki, 2026-2030-cu illər üçün konsepsiyanın həyata keçirilməsi üzrə Tədbirlər Planında Azərbaycan Milli Elmlər Akademiyasının da bu sahədə öhdəlikləri müəyyənləşdirilmişdir. Əməli tədbirlər həyata keçirildikdən sonra Azərbaycan dilindən düzgün və standartlara uyğun istifadənin təmin olunması mümkün olacaqdır.

Son olaraq qeyd edək ki, “Azərbaycan mədəniyyəti-2040” Sərəncamında Azərbaycan dili yalnız ünsiyyət vasitəsi kimi deyil, milli-mənəvi dəyər, mədəni irs və dövlətçilik rəmzi kimi təqdim olunur. Azərbaycan dilinin inkişafı üzrə həyata keçirilən sistemli fəaliyyətlər dilin funksionallığının artırılmasına, elmi əsaslarla zənginləşdirilməsinə və cəmiyyətin bütün sahələrində geniş istifadəsinə şərait yaradır. 2026-2040-cı illəri əhatə edən bu strategiya Azərbaycan dilinin həm milli, həm də beynəlxalq səviyyədə mövqeyini gücləndirməyə yönəlmişdir. Dil siyasətinin uğuru dövlət qurumlarının koordinasiyalı fəaliyyəti, elmi ictimaiyyətin fəallığı və cəmiyyətin bu prosesə aktiv cəlb olunması ilə birbaşa bağlıdır. Dilin qorunması, inkişafı və gələcək nəsillərə ötürülməsi Azərbaycanın mədəni strategiyasının əsas istiqamətlərindən biridir. Bu yanaşma milli kimliyin möhkəmləndirilməsinə, mədəni irsin davamlılığına və cəmiyyətin mənəvi inkişafına mühüm töhfə verir.

***– Müsahibə üçün sağ olun.***

**Bülbül RÖVŞƏNQIZI**



## Bəhruz Kəngərlinin anadan olmasının 134-cü ildönümünə həsr olunmuş tədbir keçirilib

Görkəmli Azərbaycan rəssamı, realist boyakarlıq məktəbinin banisi Bəhruz Kəngərlinin anadan olmasının 134-cü ildönümünə həsr olunmuş tədbir keçirilib.

Əvvəlcə mədəniyyət və incəsənət nümayəndələri tərəfindən Rəssamlar Parkında Bəhruz Kəngərlinin abidəsi ziyarət edilərək önünə gül dəstələri qoyulub.

Bəhruz Kəngərli Muzeyi və Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbiri giriş sözü ilə muzeyin direktoru Səbinə Əlincəli açaraq Bəhruz Kəngərlinin Azərbaycan təsviri sənətinin təşəkkülünə verdiyi böyük töhfələrdən bəhs edib, muzeyə göstərilən diqqət və qayğıdan danışıb.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Əməkdar rəssamı, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva qeyd edib ki, Bəhruz Kəngərlinin yaradıcılığı sonrakı nəsil rəssamlar üçün də örnək olmuş, peşəkar rəssamlığın inkişafına zəmin yaratmış, Azərbaycan təsviri incəsənətinin tarixində silinməz izlər qoymuşdur.

Sonra Bəhruz Kəngərli yaradıcılığının tədqiqatçısı, sənətşünas Nizami Alıyev realist rəssamla bağlı fikirlərini bölüşüb, fırça ustasının bədii irsinin milli-mənəvi sərvətimiz, tariximiz və mədəni yaddaşımız olduğunu bildirib.

Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Həmzə Sadiqovun “Ömrünü rəsmlərdə yaşadan rəssam”, Naxçıvan Dövlət Universitetinin Təsviri incəsənət kafedrasının baş müəllimi Əzizə Məmmədovanın “Bəhruz Kəngərlinin bədii irsi xalqımızın milli sərvətidir” adlı çıxışları dinlənilib.

Naxçıvanlı rəssam Qəhrəman Tağıyev tərəfindən çəkilmiş “Bəhruz bəy Kəngərlinin portreti” adlı rəsm əsəri Bəhruz Kəngərli Muzeyinə hədiyyə olunub.

Sonda qonaqlar muzeyin ekspozisiyası zallarında sərgilənən dəyərli sənət nümunələri ilə yaxından tanış olublar.

# “Qarabağ” varsa, inam var, “Qarabağ” varsa, qürur var

Ölkəmizin adını daim meydanda apardığı əzmkar və haqlı mübarizə ilə ucaldan “Qarabağ” komandası yanvarın 21-də Azərbaycan futbol tarixində silinməz iz buraxan gecələrdən birini daha yaşatdı. Minlərlə azarkeş Tofiq Bəhramov adına Respublika Stadionunun tribunalarında, milyonlarla insan isə ekran qarşısında eyni hissi bölüşürdü: ümid, inam və qələbə arzusu. Hər kəsin gözü bir nöqtədə idi: “Qarabağ”ın meydandakı mübarizəsində.

UEFA Çempionlar Liqasının əsas mərhələsində Almaniyanın güclü təmsilçisi “Ayntraxt”a qarşı keçirilən bu qarşılaşmada “Qarabağ” sınaqdan alnıaçıq çıxdı.





Çünki onların qarşısında torpağının adını daşıyan, zəfər ruhu ilə böyüyən, inamı vərdişə çevirən “Qarabağ” var idi.

Oyunun taleyini həll edən an 90+4-cü dəqiqəyə təsadüf etdi. Bəhlul Mustafazadənin vurduğu qol Azərbaycan futbolu tarixində yeni bir səhifə açdı. Ölkəmiz ilk dəfə Almaniya klubuna qarşı qələbə qazandı. Bu isə hər kəsin arzuladığı son idi.

Bu zəfərin arxasında dayanan əsas qüvvə isə, şübhəsiz ki, Qurban Qurbanovdur.

Oyun zamanı verilən bəzi mübahisəli və ədalətsiz hakim qərarları diqqətdən yayınmadı. Lakin bütün bu məqamlara baxmayaraq, meydanda haqq öz sözünü dedi. Ədalətsizliyə rəğmən qalib gəlmək bu qələbəni daha da dəyərli və unudulmaz etdi. Biz azarkeşlər üçün bu sevincin, bu qürurun əvəzi yoxdur. Biz bu komandaya inanmışıq, biz bu ruhla yaşamışıq. Uzaqda olsaq da, meydanda olmasaq da, ürəyimiz hər zaman “Qarabağ”la döyünüb. Bir daha sübut olundu ki, məsafələr sevgini azaltmır, əksinə, daha da möhkəmləndirir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də “Qarabağ”ı bu möhtəşəm qələbə münasibətilə təbrik edərək bildirib: ***“Çempionlar Liqasının əsas mərhələsində “Ayntraxt” komandası üzərində parlaq qələbə qazanması münasibətilə Qarabağ futbol klubunu ürəkdən təbrik edirəm!***

***Hakimin ədalətsiz və qərəzli qərarlarına baxmayaraq, haqq-ədalət öz yerini tapdı. Birinci dəfə deyil ki, UEFA tərəfindən təyin edilən hakimlər ədalətsiz və qərəzli qərarları ilə Qarabağın qələbə yolunu kəsməyə çalışırlar. Ümid edirəm ki, UEFA bu hakimin kimin tərəfindən təyin olunmasına aydınlıq gətirəcək.***

***Ədaləti və əyilməz ruhu məğlub etmək mümkün deyil. Yaşasın Qarabağ!”***

Bu gün “Qarabağ” adı artıq Avropa futbolunda hörmətlə çəkilir. Məhz buna görədir ki, bu möhtəşəm zəfər Çempionlar Liqasının rəsmi səhifələrində paylaşılaraq beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıldı. Bir daha sübut olundu ki, biz inananda, bir olanda və sona qədər mübarizə aparanda qalib gəlirik. “Qarabağ” yalnız meydanda deyil, tarixdə də öz izini qoymağa davam edir. Biz isə bir xalq olaraq bu qüruru yaşamaqdan sonsuz dərəcədə xoşbəxtik. Çünki bizə qələbə yaraşır. “Qarabağ” yoluna davam edir və tarix yazmaqda israrlıdır.

## Naxçıvan tarixində ilk dəfə milli heyətdə yer alan qadın güləşçi

Ötən günlərdə xəbər verdiyimiz kimi, Naxçıvan Şəhər Uşaq-Gənclər İdman Məktəbinin (UGİM) idmançısı Sevinc Əliyeva güləş üzrə 20 yaşadək qızlardan ibarət milli komandamızın seçim xarakterli məşq toplanışında iştirak edib. Məşqçi heyətinin etimadını qazanan idmançı milli komandanın heyətinə daxil edilib. Qeyd edək ki, Sevinc Əliyeva ötən ildən etibarən güləşlə məşğuldur. UGİM-də məşqçi-müəllim Orxan Əsgərovun başçılığı ilə keçirilən məşqlərdə davamlı olaraq iştirak edən idmançı qısa müddətdə fiziki və taktiki inkişafa nail olub. İdmançı əvvəllər atletikanın qaçış növündə muxtar respublika və ölkə birinciliklərində müxtəlif nəticələr əldə edib. Biz də Sevinclə görüşüb təəssüratlarını öyrəndik. İlk sualımız belə oldu:

***– Naxçıvan tarixində ilk qadın güləşçi kimi milli komandada yer almaq sənə hansı məsuliyyəti yükləyir? Bu xəbəri eşidəndə nə hiss etdin?***

– Milli komandaya daxil olmaq mənim ən böyük arzum idi. Bu xəbəri eşidəndə həm sevindim, həm kövrəldim, həm də özümlə qürur duydum. Bu uğur məndə böyük məsuliyyət hissi yaradır ki, milli komandanın və müəllimlərimin adını doğruldum, Naxçıvanı layiqincə təmsil edim.

***– Güləşə başlamaq qərarını necə verdin? Bu idman növünə marağın necə yarandı?***

– Artıq uzun illərdir, idmanla məşğul oluram. Atletikanın qaçış növü üzrə dəfələrlə respublika və digər turnirlərin iştirakçısı və mükafatçısı olmuşam. Güləş də sevdiyim idman növlərindən biridir. Məni ilk dəfə güləş məşqinə müəllim Nihad Muradov dəvət edib. Daha sonra Orxan Əsgərovun rəhbərliyi altında məşqlərimi davam etdirmişəm və bu sahədə uğur qazanacağıma inanmışam. Zaman keçdikcə bu idman növünə marağım artıb, güləşi sevmişəm, hazırda onu böyük sevgi və həvəslə davam etdirirəm.

***– Cəmi bir ildir, güləşlə məşğul olmağına baxmayaraq, belə bir uğur qazanmağının sirri nədədir?***

– Düşünürəm ki, güləş idman növləri



arasında ən çox səbir, dözümlülük və əzmkarlıq tələb edən sahələrdəndir. Mən də bu keyfiyyətləri özümə əsas prinsip seçərək məşqlərə davamlı şəkildə qatılmışam. Məşqçilərim Orxan Əsgərov və Faiq İsgəndərovun mənə öyrətdiklərini böyük məsuliyyətlə yerinə yetirməyə çalışmışam. Son bir il ərzində bütün vaxtımı güləşə həsr etmiş, bu dövrü ciddi nizam-intizamla keçirmişəm. Qazandığım uğurun əsas sirrini də məhz bunda görürəm. Bu yolda Orxan müəllim mənim üçün ən böyük dəstəkçi olub. O, üzərinə düşən bütün vəzifələri böyük səylə və layiqincə yerinə yetirir, mənimlə fiziki, taktiki və psixoloji baxımdan hərtərəfli məşğul olur. Üzərimdə əziyyəti çoxdur. Fürsətdən istifadə edərək məşqçim Orxan müəllimə dərin təşəkkürümü bildirmək istəyirəm.

***– Əvvəllər atletika ilə məşğul olmağın güləşə keçid prosesində sənə hansı üstünlükləri və çətinlikləri qazandırdı, eləcə də seçim xarakterli milli komanda məşq toplanışında sənə ən çox çətin olan məqamlar nələr oldu?***

– Uşaq yaşlarımdan idmanla məşğul olduğum üçün atletikadan güləşə keçid mənim üçün müəyyən qədər çətin olsa da, bu məşqlərin öhdəsindən gəlməyi bacardım. Sadəcə, bunun üçün bir az zaman və səbir lazım idi. Atletika ilə məşğul olduğum dövrlərdən güləşə həvəsim var idi. Zaman keçdikcə bu idman növünə olan marağım daha da artdı və özümə inanaraq məhz bu sahəyə yönəldim. Milli komandanın seçim xarakterli məşq toplanışında isə ciddi bir çətinliklə qarşılaşmadım. Sadəcə, ilk dəfə qadınlarla güləşdiyim üçün bir qədər həyəcanlı idim. Bu da müəyyən mənada psixoloji baxımdan mənə çətinlik törədirdi. Düşünürəm ki, insan, ilk növbədə, özünə inanmalı və qarşısına məqsəd qoymalıdır. Bu sahədə qadınların sayı kişilərə nisbətən azdır, amma bu, qadınların güləşlə məşğul ola bilməyəcəyi anlamına gəlmir. Sadəcə, səbirli olmaq, davamlı məşq etmək və öz üzərində işləmək lazımdır.

***– Qarşıdakı dövr üçün əsas hədəflərin və milli komanda ilə bağlı arzuların nələrdir? Ailən və yaxınlarının bu uğura münasibəti necədir?***

– Əsas hədəfim qarşıda məni gözləyən turnirlərdə, eləcə də ölkəmizi təmsil edəcəyim Avropa və Dünya çempionatlarında qalib olmaqdır. Milli komanda ilə bağlı ən böyük arzum isə hər zaman olduğu kimi, xarici ölkələrdə bayrağımızı yüksəklərə qaldırmaq və Azərbaycan himnini səsləndirməkdir. Ailəm bu uğura ən az mənim qədər sevindi. Bu yolda ən böyük dəstəkçim isə anam olub. O heç vaxt mənə olan inamını itirməyib. Ailəmin dəstəyi mənim üçün çox böyük önəm daşıyır.

***– Naxçıvanı beynəlxalq arenada təmsil etmək sənin üçün nə ifadə edir və sonda idmana yeni başlayan qızlara hansı tövsiyələri vermək istərdin?***

– Bu mənim üçün ən böyük fəxr və qürur mənbəyidir. Naxçıvanı və Azərbaycanı layiqincə təmsil etmək, bayrağımızı dalğalandırmaq isə ən böyük arzumdur. Bu yolda yeni başlayan həmyaşıdlarıma idmanın hansı növünü seçirlərsə, bu sahədə məqsədlərinə çatmaq üçün həvəsli, əzmkar və səbirli çalışmalarını, arzularına çatmaq üçün böyük səy göstərmələrini tövsiyə edərdim.

Sevincə müsahibə üçün təşəkkür edirik. İnanırıq ki, əldə etdiyi bu tarixi uğur gələcək fəaliyyətində daha böyük nailiyyətlərin başlanğıcı olacaq və o bundan sonra da Naxçıvanı və Azərbaycanı beynəlxalq arenalarda layiqincə təmsil edəcək.

**“Şərq qapısı”**

## Naxçıvan Təlim Mərkəzi dövlət qulluqçuları üçün “Microsoft Excel” təliminə start verib



Naxçıvan Təlim Mərkəzi dövlət qulluqçularının rəqəmsal səriştələrinin artırılması istiqamətində növbəti mühüm addımını ataraq “Microsoft Excel” mövzusunda ixtisasartırma təliminə başlayıb. Onlayn və əyani formatda baş tutacaq təlim proqramının açılış sessiyası 22 yanvar tarixdə keçirilib. Açılış sessiyasında iştirakçılara Microsoft Excel proqramının əsas funksiyaları, məlumatların sistemləşdirilməsi və təhlili, info cədvəllərin qurulması, eləcə də funksional hesabatların hazırlanması ilə bağlı ilkin nəzəri və praktik biliklər təqdim olunub.

Bir ay davam edəcək proqram təcrübəli təlimçi Qönçə İsmayılovanın rəhbərliyi ilə həyata keçirilir. Təlim çərçivəsində iştirakçılar real iş proseslərinə uyğun praktiki tapşırıqlar üzərində çalışaraq məlumatların idarə edilməsi, analitik təhlil və avtomatlaşdırılmış hesabatların hazırlanması üzrə bacarıqlarını inkişaf etdirəcəklər.

Təlim proqramını müvəffəqiyyətlə başa vuran iştirakçılara rəsmi sertifikatlar təqdim olunacaq.

**Elan**

“Xidmət” Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə çatdırılır ki, Naxçıvan şəhəri, Xətai küçəsi 6 ünvanında yerləşən “Xidmət” Səhmdar Cəmiyyətinin inzibati binasında 14 mart 2026-cı il saat $11^{00}$-da səhmdarların ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyində aşağıdakı məsələlər durur:

1. Cəmiyyətin ümumi yığıncağının reqlamentinin təsdiqi;
2. Cəmiyyətin 2025-ci ildə maliyyə təsərrüfat fəaliyyətinə dair idarə heyəti sədrinin hesabatı;
3. 2026-cı ildə cəmiyyətin fəaliyyət proqramına baxılması;
4. Sair məsələlər.

***İtmişdir***

Naxçıvan şəhəri, Babək məhəlləsi, bina 3, mənzil 69-da Abbasov Allahverdi Ənvər oğluna məxsus 18139 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Kolanı kəndində Nəsirov Əzim İslam oğlunun adına verilmiş JN-$56^{B}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək şəhər sakini Mirzəyev Nizami Muxtar oğlunun adına olan JN-$671^{A}$ nömrəli 10301018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI

**Baş redaktor müavini:**
MƏMMƏD BABAYEV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Vöen: 0200065441*

Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 9

***Nömrəyə məsul:*** **Ceyhun Məmmədov, Rafiq Təhməzov, Bülbül Rövşənqızı**
***Dizayner:*** **Həbibə Allahverdiyeva**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*